NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ AZƏRBAYCANIN ƏN DƏYƏRLİ, QABAQCIL ALİ MƏKTƏBLƏRİNDƏN BİRİDİR

HEYDƏR ƏLİYEV



YENİ FİKİR

TƏSİSÇİ: NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ

30 sentyabr 2026-cı il, çərşənbə № 8 (77)

NDU-da 1000 yerlik yataqxana kompleksi tikiləcək

Azərbaycan Respublikası Prezidentinin 12 avqust 2026-cı il tarixli Sərəncamına əsasən, "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair əlavə tədbirlər haqqında" sənəd çərçivəsində Naxçıvan Dövlət Universitetində tələbələr üçün 1000 yerlik yataqxana kompleksinin tikintisi məqsədilə Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinə 25 milyon manat vəsait ayrılıb.



Yeni yataqxana kompleksinin tikintisi Naxçıvan Dövlət Universitetində tələbələrin yaşayış şəraitinin yaxşılaşdırılmasında və universitetin artan tələbə kontingentinin yerləşmə imkanlarının genişləndirilməsində mühüm rol oynayacaq.

Naxçıvan Dövlət Universitetinin kollektivi adından cənab Prezidentə göstərdiyi diqqət və qayğıya, eləcə də universitetimizin inkişafına verdiyi dəstəyə görə dərin minnətdarlığımızı bildiririk.

NDU yüksək nəticə ilə növbəti 5 il müddətinə institusional akkreditasiyadan keçdi



Akkreditasiya Şurasının növbəti iclasında Təhsildə Keyfiyyət Təminatı Agentliyi tərəfindən "2024-cü və 2025-ci təqvim ilində ali təhsil müəssisələrinin akkreditasiyasının keçirilməsi Qrafiki"nə uyğun olaraq aparılmış institusional akkreditasiyanın nəticələri müzakirə edilib.

Qəbul edilmiş qərara əsasən, Naxçıvan Dövlət Universiteti növbəti 5 il müddətinə institusional akkreditasiya olunmuş ali təhsil müəssisəsi hesab edilib və ölkədə yüksək nəticə göstərən universitetlər sırasında yer alıb.


Qeyd edək ki, institusional akkreditasiya ali təhsil müəssisəsinin fəaliyyətinin dövlət təhsil standartlarına, keyfiyyət təminatı meyarlarına və müasir ali təhsil tələblərinə uyğunluğunun qiymətləndirilməsi məqsədilə həyata keçirilir. Bu proses universitetdə təhsilin keyfiyyətinin davamlı şəkildə yüksəldilməsinə, idarəetmə sisteminin təkmilləşdirilməsinə və dayanıqlı inkişafın təmin olunmasına xidmət edir.

Naxçıvan Dövlət Universitetinin növbəti 5 il müddətinə institusional akkreditasiyadan keçməsi universitetdə keyfiyyət təminatı sisteminin uğurla tətbiq olunduğunu, təhsil, elm və idarəetmə sahələrində həyata keçirilən islahatların müsbət nəticələr verdiyini bir daha təsdiqləyir.

Naxçıvan Dövlət Universitetində Bilik Günü qeyd olunub


Naxçıvan Dövlət Universitetinin Konqres Mərkəzində 15 Sentyabr – Bilik Günü münasibətilə tədbir keçirilib.

Əvvəlcə Ümummilli Lider Heydər Əliyevin və Vətən uğrunda canlarından keçmiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Ardınca Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.









Daha sonra universitetin dünəni, bu günü və sabahını özündə əks etdirən videoçarx nümayiş olunub.

Tədbiri giriş sözü ilə açan Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev yeni tədris ilinin başlanması münasibətilə professor-müəllim və tələbə heyətini təbrik edib, universitet həyatına yeni başlayan gənclərə uğurlar arzulayıb.

Rektor Ümummilli Lider Heydər Əliyevin Naxçıvan Dövlət Universitetinə dörd dəfə səfər etməsini, ali təhsil ocağı ilə bağlı təşəbbüslərini, eləcə də NDU-nun fəxri doktoru adını daşımasını xüsusi qeyd edib. Cənab Prezident İlham Əliyevin Naxçıvan Dövlət Universitetində yeni yataqxana kompleksinin tikintisi ilə bağlı imzaladığı Sərəncamı dövlət qayğısının növbəti nümunəsi kimi dəyərləndirən rektor bunun tələbələrin sosial-məişət şəraitinin yaxşılaşdırılmasına və universitetin infrastruktur imkanlarının genişləndirilməsinə mühüm töhfə verəcəyini vurğulayıb.

Elbrus İsayev tələbələrə universitetin yaratdığı beynəlxalq mübadilə proqramlarından, yay stajlarından, müasir laboratoriyalardan, rəqəmsal tədris imkanlarından və kitabxana resurslarından fəal yararlanmağı tövsiyə edib. Rektor tələbə qəbulunda keyfiyyət göstəricilərinin yüksəldiyini də vurğulayıb. Qeyd edib ki, 600-700 intervalında bal toplayaraq NDU-ya qəbul olunan tələbələrin sayı 2024-2025-ci tədris ilində 41 nəfər olduğu halda 2026-2027-ci tədris ilində 166-ya çatıb.

643 balla Hüquqşünaslıq (tədris ingilis dilində) ixtisasına qəbul olunan Solmaz Ələkbərli çıxış edərək tələbə adını qazanmağın sevincini bölüşüb, NDU-da təhsil almaqdan məmnunluğunu ifadə edib.

623 balla Naxçıvan Dövlət Universitetinə qəbul olan Tağıyeva Xanımın valideyni Suvrə Rzayeva yüksək nəticə göstərən tələbələri təbrik edib və onlara yeni tədris ilində uğurlar arzulayıb.

Daha sonra 2026-2027-ci tədris ilində 600-dən yuxarı bal toplayaraq Naxçıvan Dövlət Universitetini seçən tələbələrə hədiyyələr təqdim olunub.

Tədbirin bədii hissəsində NDU İncəsənət fakültəsinin müəllim və tələbələrinin ifasında rəngarəng musiqi proqramı təqdim olunub.

Sonda xatirə fotosu çəkdirilib.

Qeyd edək ki, Naxçıvan Dövlət Universitetində 2026-2027-ci tədris ilinin payız semestrinin ilk dərsində tələbələr şəhid ailələrini və qaziləri dinləyiblər. Artıq 5 ildir ki, universitetdə hər semestrin ilk dərslərinin şəhid ailələri və qazilər tərəfindən keçirilməsi ənənəyə çevrilib. Bu təşəbbüsün əsas məqsədi Vətənimizin bütövlüyü uğrunda canlarını fəda edən şəhidlərimizin əziz xatirəsini əbədiləşdirmək, sağlamlığını itirən qazilərimizin fədakarlığını gənc nəslə çatdırmaq və tələbələri vətənpərvərlik ruhunda tərbiyə etməkdir.

Naxçıvanda ilk dəfə təşkil olunan I Naxçıvan Beynəlxalq Tibb Günlərinə start verilib

Naxçıvan Dövlət Universitetinin ev sahibliyi və təşkilatçılığı, Ankara Universiteti (Türkiyə), Avrasiya Qastroenteroloji Cəmiyyəti (Türkiyə) və Azərbaycan Endoskopik Laparoskopik Cərrahlar Cəmiyyəti İctimai Birliyinin birgə təşkilatçılığı ilə keçirilən I Naxçıvan Beynəlxalq Tibb Günləri – 2026-nın açılış mərasimi baş tutub.













Beynəlxalq tədbirin iştirakçıları əvvəlcə Ümummilli Lider Heydər Əliyevin Naxçıvan şəhərinin mərkəzində ucaldılan abidəsini ziyarət ediblər. Abidə önünə gül dəstələri qoyulub, Ulu Öndərin xatirəsi dərin ehtiramla anılıb. Daha sonra qonaqlar Heydər Əliyev Muzeyi ilə tanış olublar.

Tədbirin açılış mərasimində Ümummilli Lider Heydər Əliyevin və Vətən uğrunda canlarından keçmiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Tədbirdə Avropa, Amerika və türkdilli ölkələrdən tanınmış alimlər, həkimlər, tibb sahəsinin mütəxəssisləri, rezident və tələbələr iştirak ediblər.

Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev tədbiri giriş sözü ilə açaraq qonaqları salamlayıb. Rektor Naxçıvan Dövlət Universitetində tibb sahəsi üzrə müxtəlif elmi və praktiki tədbirlərin keçirilməsinin artıq ənənə halı aldığını diqqətə çatdırıb. Elbrus İsayev NDU-da tibb təhsilinin inkişaf mərhələlərindən söz açaraq universitetin Tibb fakültəsinin məzunlarının ölkədə və xaricdə uğurla fəaliyyət göstərmələrinin qürurverici olduğunu bildirib. Rektor müasir tələblərə cavab verən tibb təhsil modelinin formalaşdırılması, tibbin inkişafı və səhiyyə xidmətlərinin keyfiyyətinin yüksəldilməsi istiqamətində qarşıda duran vəzifələrdən danışıb, bu sahədə həyata keçirilən layihə və təşəbbüslərin əhəmiyyətini vurğulayıb.

Naxçıvan Muxtar Respublikasının səhiyyə nazirinin müavini, nazir vəzifələrini müvəqqəti icra edən Rəşadət Nabatov çıxışında Naxçıvan Dövlət Universiteti ilə səhiyyə müəssisələri arasında səmərəli əməkdaşlığın əhəmiyyətindən bəhs edib. Bildirib ki, əməkdaşlıq çərçivəsində NDU tələbələrinin muxtar respublikanın müxtəlif xəstəxanalarında praktiki təcrübə keçməsi, birgə maarifləndirici tədbirlərin təşkili və tibb sahəsində bilik mübadiləsinin aparılması regionda səhiyyənin inkişafına mühüm töhfə verir.

Tədbirdə Avrasiya Qastroenteroloji Dərnəyinin sədri Yasemin Balaban, Azərbaycan Allerqoloqlar və İmmunoloqlar Cəmiyyətinin prezidenti Lalə Allahverdiyeva, Azərbaycan Ağız və Üz-Çənə Cərrahları Cəmiyyətinin sədri Çingiz Rəhimov, Azərbaycan Milli Onkologiya Mərkəzinin baş həkimi, Azərbaycan Respublikasının baş onkoloqu Azad Kərimli, Azərbaycan Endoskopik Laparoskopik Cərrahlar Cəmiyyəti İB-nin sədri Müşviq Həsənov və Qastrointestinal Cərrahi Dərnəyinin sədri Erdal Birol Bostancı da çıxış ediblər. Çıxışlarda I Naxçıvan Beynəlxalq Tibb Günlərinin tibb mütəxəssisləri, alimlər və tələbələr arasında təcrübə və elmi fikir mübadiləsinin aparılması, yeni tibbi yanaşmaların müzakirəsi və beynəlxalq əməkdaşlığın genişləndirilməsi baxımından əhəmiyyəti vurğulanıb.

Ardınca tədbirin təşkilinə göstərilən dəstəyə görə bir sıra iştirakçılara təşəkkür plaketləri təqdim olunub.

I Naxçıvan Beynəlxalq Tibb Günlərinin açılış mərasimi NDU Konservatoriyasının müəllim və tələbələrinin ifasında təqdim olunan konsert proqramı ilə yekunlaşıb. Azərbaycan musiqisinin bir sıra nümunələrinin səsləndirildiyi proqram iştirakçılarda xoş ovqat yaradıb və alqışlarla qarşılanıb.

Qeyd edək ki, I Naxçıvan Beynəlxalq Tibb Günləri çərçivəsində XXIII Avrasiya Qastroenteroloji Cəmiyyəti Konqresi, Cərrahi və Mama-Ginekoloji Problemlərə Multidissiplinar Yanaşmalar üzrə Beynəlxalq Konqres, müxtəlif beynəlxalq kurslar, master-klaslar, praktiki kurslar, canlı endoskopik və cərrahi nümayişlər, panel müzakirələri, simpoziumlar, elmi təqdimatlar və tələbə sessiyaları keçirilib. Həmçinin üç gün ərzində ödənişsiz tibbi aksiyalar təşkil olunmuşdur. Tədbir çərçivəsində ümumi cərrahiyyə, onkologiya, endoskopiya, radiologiya, mama-ginekologiya, anesteziologiya və reanimatologiya, uşaq, plastik və rekonstruktiv cərrahiyyə və digər tibbi istiqamətlər üzrə aktual məsələlər müzakirə edilmişdir.

Gülay Tahirli
Media və ictimaiyyətlə əlaqələr şöbəsinin əməkdaşı

Tibb Günləri çərçivəsində ödənişsiz tibbi aksiyalar keçirilib

Ödənişsiz tibbi aksiyalarla yerli sakinlərin sağlamlığı diqqət mərkəzində olub

Ümumilikdə 300-ə yaxın sakin tibbi aksiyalardan yararlanıb. Müxtəlif istiqamətlər üzrə ixtisaslaşmış həkimlər tərəfindən qəbul edilən pasiyentlərin şikayətləri dinlənilib, sağlamlıq vəziyyətləri qiymətləndirilib və zəruri tibbi tövsiyələr verilib. Tədbir çərçivəsində həyata keçirilən hərtərəfli müayinələr endokrinologiya, pulmonologiya, radiologiya, anesteziologiya və reanimatologiya, oftalmologiya, onkologiya, ümumi və onkoloji cərrahiyyə, urologiya, revmatologiya, qastroenterologiya, eləcə də bariatrik cərrahiyyə istiqamətlərini əhatə edib. Peşəkar mütəxəssislərin iştirakı ilə reallaşan bu xeyriyyə aksiyaları əhaliyə yüksək səviyyədə tibbi xidmət göstərilməsi, mövcud xəstəliklərin vaxtında aşkarlanması və profilaktik tədbirlərin gücləndirilməsi baxımından mühüm əhəmiyyət daşıyır. Müayinə zamanı müəyyən edilən patologiyalara uyğun olaraq pasiyentlərə müalicələr təyin edilib, həmçinin xəstələrə sağlam həyat tərzi və xəstəliklərin ilkin mərhələdə qarşısının alınması ilə bağlı ətraflı məlumat verilib.



28 pasiyent oftalmoloji müayinədən keçirilib.

Sentyabrın 26-da oftalmoloq, Azərbaycan Tibb Universitetinin "Oftalmologiya" kafedrasının əməkdaşı, AOC Gənc Oftalmoloqlar Komitəsində gənc oftalmoloqlarla iş üzrə mentor, Azərbaycanı müxtəlif beynəlxalq elmi konfrans və oftalmoloji platformalarda məruzəçi, moderator və təşkilatçı kimi təmsil edən Dr. Gülnar Əliyeva tərəfindən 28 pasiyent müayinə olunub.



Qəbul zamanı pasiyentlərə rutin oftalmoloji müayinələr aparılıb, refraksiya qiymətləndirilib, zəruri hallarda eynək korreksiyası təyin edilib, həmçinin göz dibi müayinələri həyata keçirilib.

Müayinələr zamanı bir sıra pasiyentlərdə refraksion qüsurlar, digərlərində isə çəpgözlük, uveit, episklerit, laqoftalm və katarakta kimi müxtəlif oftalmoloji patologiyalar aşkarlanıb.

Aşkarlanan patologiyalara uyğun olaraq pasiyentlərə müalicələr təyin edilib və tibbi tövsiyələr verilib.

I Naxçıvan Beynəlxalq Tibb Günlərinin ilk günündə 6 istiqamət üzrə elmi sessiyalar keçirilib





Naxçıvan Dövlət Universitetinin ev sahibliyi və təşkilatçılığı, Ankara Universiteti, Avrasiya Qastroenteroloji Cəmiyyəti və Azərbaycan Endoskopik Laparoskopik Cərrahlar Cəmiyyəti İctimai Birliyinin birgə təşkilatçılığı ilə keçirilən I Naxçıvan Beynəlxalq Tibb Günləri – 2026 çərçivəsində müasir tibbin aktual problemlərinə həsr olunmuş genişmiqyaslı panel müzakirələri və praktiki məşğələlər təşkil edilib. Beynəlxalq elmi platformanın ilk günündə Avropa, Amerika və türkdilli ölkələrdən gələn tanınmış mütəxəssislərin iştirakı ilə altı əsas istiqamət üzrə elmi sessiyalar keçirilib. İltihabi bağırsaq xəstəlikləri, perianal Kron və iltihabi bağırsaq xəstəlikləri, cərrahi qastroenterologiya və Kron xəstəliyi, üz-çənə və plastik-rekonstruktiv cərrahiyyə, eləcə də endourologiya mövzularını əhatə edən bu sessiyalarda müasir diaqnostika və müalicə üsulları, qabaqcıl cərrahi yanaşmalar, robotik cərrahiyyə və süni intellektin tibbdə tətbiqi ilə bağlı məruzələr dinlənilib.

"I Naxçıvan Beynəlxalq Tibb Günləri – 2026" Beynəlxalq elmi platformasının ikinci günündə müxtəlif istiqamətlər üzrə panel müzakirələri və praktiki kurslar keçirilib.

Tədbirin ikinci günü isə daha zəngin proqramla və müxtəlif istiqamətlər üzrə paralel panel müzakirələri ilə yadda qalıb. Günün birinci yarısında onkoloji xəstəliklər üzrə üç hissədən ibarət panellər, həmçinin ginekologiya, cərrahi xəstəliklər, qaraciyər xəstəlikləri və gənc tədqiqatçılar üçün startap panelləri baş tutub. İştirakçıların qarşılıqlı fikir mübadiləsi və sual-cavab formatında davam etdirdiyi müzakirələrdə müasir tibbin müxtəlif sahələri üzrə mövcud problemlər və onların həlli yolları aydınlaşdırılıb.

Eyni zamanda "Transabdominal intestinal ultrasəs müayinəsi və laparoskopik cərrahiyyə" kursu təşkil olunub.






Günün ikinci yarısında startap və gənc tədqiqatçıların növbəti panelləri, hepatologiyada aktual mövzulara ümumi baxış, plastik və rekonstruktiv üz-çənə cərrahiyyəsi, eləcə də endoskopik cərrahiyyə sessiyaları keçirilib, "Cərrahi xəstələrə müasir yanaşmalar" və "Robotik cərrahiyyə" mövzularında master-klaslar nümayiş etdirilib.





I Naxçıvan Beynəlxalq Tibb Günləri – 2026 beynəlxalq elmi platformasının sonuncu günü panel müzakirələri ilə davam edib.

Beynəlxalq elmi platformanın sonuncu günü isə "Hepatoloji, qastroenteroloji xəstəliklər" və "Qastroenteroloji və cərrahi xəstəliklərdə reanimasiya və anesteziologiya" mövzularını əhatə edən yekun panellərlə yekunlaşıb. Yekun müzakirələrdə mütəxəssislər tərəfindən müvafiq sahələr üzrə ən son yeniliklər, müasir diaqnostika və müalicə protokolları geniş şəkildə təhlil olunub, qarşılıqlı elmi əlaqələrin gələcək perspektivləri dəyərləndirilib.

NDU-nu seçən yüksəkballı abituriyentlərin sayı artır



Naxçıvan Dövlət Universitetinə yüksək nəticə ilə qəbul olunan tələbələrin sayında son illərdə nəzərəçarpacaq artım qeydə alınıb.

2024-2025-ci tədris ilində 600-dən yuxarı balla qəbul olan tələbələrin sayı 41 nəfər olduğu halda, 2025-2026-cı ildə bu rəqəm 152-yə yüksəlib. 2026-2027-ci tədris ilində isə NDU-nu 600-dən yuxarı balla seçən tələbələrin sayı 166 nəfərə çatıb.

Bu göstərici yüksək nəticə göstərən abituriyentlərin NDU-ya marağının və universitetə olan etimadın artdığını nümayiş etdirir.

Azərbaycanın ən gənc tələbəsi NDU-nu seçdi



15 yaşlı Gülşən Məmmədli 621,2 balla Naxçıvan Dövlət Universitetinin Stomatologiya ixtisasına dövlət sifarişi əsasında qəbul olunub.

IV ixtisas qrupu üzrə imtahan verən Gülşən Məmmədli Naxçıvan Dövlət Universitetini seçib. Uşaqlıqdan tibb sahəsinə maraq göstərdiyini qeyd edən tələbə bu uğurun əldə olunmasında valideynlərinin dəstəyinin mühüm rol oynadığını vurğulayıb.

Gənc tələbə NDU-nun tələbələr üçün yaratdığı praktiki imkanları, o cümlədən ilk kurslardan Türkiyədə təcrübə keçmək imkanını yüksək qiymətləndirib. O, gələcəkdə seçdiyi sahə üzrə peşəkar mütəxəssis olmağı qarşısına məqsəd qoyub.

Gülşən Məmmədli abituriyentlərə hazırlıq prosesinə ciddi yanaşmağı və qarşıya qoyduqları məqsədə inamla irəliləməyi tövsiyə edib.

NDU-da bakalavriat üzrə qəbul göstəriciləri rekord həddə çatıb

Naxçıvan Dövlət Universitetində bakalavriat təhsil pilləsi üzrə tələbə qəbulunda son illərdə davamlı artım müşahidə olunur.

2020-2021-ci tədris ilində bakalavriat səviyyəsinə 1241 tələbə qəbul olunduğu halda, bu göstərici 2026-2027-ci il tədris ilində 2096 nəfərə çatıb.

Universitetin əsas hədəflərindən biri 2030-cu ilədək tələbə sayını 20 min nəfərə çatdırmaqdır. Qəbul sayındakı artım əsasən əmək bazarının tələbləri nəzərə alınmaqla yeni ixtisasların açılması, tədris dillərinin şaxələndirilməsi və əcnəbi tələbələrin NDU-ya marağının artması hesabına mümkün olub.

Son 5 ildə bakalavriat səviyyəsində 39 yeni ixtisas və təhsil proqramı açılıb. Yeni istiqamətlər sırasında "İnformasiya təhlükəsizliyi", "Proseslərin avtomatlaşdırılması mühəndisliyi", "Elektrik və elektronika mühəndisliyi", "Kompüter mühəndisliyi", "Regionşünaslıq (Avropa üzrə)", "Dövlət və ictimai münasibətlər", "Psixologiya", "Hərbi tibb", "Tibb bacısı işi", "Marketinq", "Beynəlxalq ticarət və logistika", "Maliyyə", "Kimya", "Coğrafiya", "Fəlsəfə", "Riyaziyyat", "Yer quruluşu və daşınmaz əmlakın kadastrı", "Bitki mühafizəsi", "Kimya mühəndisliyi", "Xüsusi pedaqogika", "İbtidai sinif müəllimliyi", "Məktəbəqədər təhsil" və "Təhsildə sosial-psixoloji xidmət" kimi ixtisaslar yer alır.



Bununla yanaşı, universitetdə tədris dillərinin şaxələndirilməsi istiqamətində də mühüm addımlar atılıb. "İnformasiya təhlükəsizliyi", "Kompüter mühəndisliyi", "Beynəlxalq münasibətlər", "Tibb", "İqtisadiyyat", "Hüquqşünaslıq", "Riyaziyyat müəllimliyi" və "Turizm işinin təşkili" ixtisasları ingilis dilində, "İnformasiya texnologiyaları" ixtisası isə türk dilində tədris olunur.

Həmçinin "İqtisadiyyat" və "Kompüter mühəndisliyi" üzrə ikili diplom proqramları, "SABAH (Tibb)" və "SABAH (Tibb – ingilis dilində)" proqramlarının tətbiqi NDU-da təhsil imkanlarının genişləndirilməsinə xidmət edir.

Yeni ixtisasların yaradılması, tədris dillərinin genişləndirilməsi, ikili diplom və SABAH proqramlarının tətbiqi, eləcə də əcnəbi tələbələrin universitetə marağının artması NDU-da tələbə kontingentinin yüksəlməsinə təsir edən əsas amillərdəndir.

NDU-nun Beynəlxalq Məktəbində yeni tədris ilinin ilk zəngi çalınıb

"15 Sentyabr – Bilik Günü" və 2026-2027-ci tədris ilinin başlanması münasibətilə Naxçıvan Dövlət Universitetinin Beynəlxalq Məktəbində tədbir keçirilib.









Tədbirdə Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev, NDU nəzdində Beynəlxalq Kembric Məktəbinin və Gimnaziyanın rəhbərliyi, müəllimlər, valideynlər, şagirdlər və qonaqlar iştirak ediblər.

Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev şagirdləri, müəllimləri və valideynləri Bilik Günü, o cümlədən yeni tədris ilinin başlanması münasibətilə təbrik edib. Rektor bildirib ki, universitetin nəzdində fəaliyyət göstərən Beynəlxalq Kembric Məktəbi və Gimnaziyada müasir təhsil yanaşmalarının tətbiqi, keyfiyyətli tədris mühitinin formalaşdırılması və şagirdlərin gələcəyin çağırışlarına uyğun hazırlanması əsas prioritetlərdəndir.

Elbrus İsayev qeyd edib ki, hər iki təhsil müəssisəsində şagirdlərin akademik bilikləri ilə yanaşı, müstəqil düşünmə, araşdırma, yaradıcılıq, ünsiyyət və liderlik bacarıqlarının inkişafına xüsusi diqqət yetirilir. Məktəbdə yaradılmış müasir və innovativ təhsil mühitinin şagirdlərin potensialının üzə çıxarılması və onların hərtərəfli inkişafı üçün geniş imkanlar yaratdığını vurğulayan rektor kollektivə yeni tədris ilində uğurlar, şagirdlərə isə yüksək nailiyyətlər arzulayıb.

Tədbirdə NDU nəzdində Gimnaziyanın 2025–2026-cı tədris ilində əldə etdiyi yüksək nəticələr xüsusi diqqətə çatdırılıb. Bildirilib ki, Gimnaziyanın 54 məzununun hamısı ali təhsil müəssisələrinə qəbul olunaraq 100 faizlik nəticəyə imza atıb. Məzunlardan 16 nəfər 600-dən, 31 nəfər isə 500-dən yuxarı bal toplayıb. 30 məzun fərqlənmə attestatına, 2 məzun isə qızıl nişana layiq görülüb.

Gimnaziyaya marağın ildən-ilə artdığı da qeyd olunub. 2026-2027-ci tədris ili üçün VI sinfə keçirilən qəbul imtahanında 526 namizəd iştirak edib. Yüksək rəqabət şəraitində keçirilən imtahanın nəticələrinə əsasən 60 şagird Gimnaziyada təhsil almaq hüququ qazanıb.

NDU nəzdində Beynəlxalq Kembric Məktəbində də yeni tədris ili əhəmiyyətli qəbul göstəriciləri ilə başlayıb. 2026-2027-ci tədris ili üzrə məktəbin I sinfinə 21 şagird qəbul olunub. VI sinfə qəbul imtahanında iştirak edən 90 namizəddən 41-i uğurlu nəticə göstərərək Beynəlxalq Kembric Məktəbində təhsil almaq hüququ əldə edib.

Tədbirdə Gimnaziyaya qəbul imtahanında ən yüksək nəticə göstərən Ziyafət Zamanlı və Beynəlxalq Kembric Məktəbi üzrə yüksək nəticə göstərən Firuzə Hüseynəliyeva şagirdlər adından çıxış edərək yeni tədris ili ilə bağlı təəssürat və arzularını bölüşüblər.

Sonda yeni tədris ilinin ilk zəngi çalınıb. Bununla da NDU-nun Beynəlxalq Məktəbində 2026-2027-ci tədris ilinə rəsmi start verilib.

Türkiyədə keçirilən beynəlxalq yay təcrübəsi proqramının yekunlarına dair hesabat

Naxçıvan Dövlət Universitetində Tibb fakültəsi tələbələrinin Türkiyənin aparıcı ali tibb təhsili müəssisələrində keçdikləri beynəlxalq yay təcrübəsi proqramının yekunlarına həsr olunan hesabat tədbiri keçirilib.



Tədbiri giriş sözü ilə açan universitetin rektoru Elbrus İsayev bildirib ki, Naxçıvan Dövlət Universiteti ilə Türkiyə Respublikasının tərəfdaş universitetləri arasında qüvvədə olan əməkdaşlıq müqavilələri və qarşılıqlı anlaşma memorandumları, həmçinin "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nın 8.9.5-ci bəndinin icrası çərçivəsində 6-17 iyul 2026-cı il tarixlərində beynəlxalq yay təcrübəsi proqramı uğurla həyata keçirilib. Rektor proqram iştirakçıları ilə görüşərək təcrübənin nəticələri, tələbələrin təklifləri və gələcəkdə proqramın daha da təkmilləşdirilməsi istiqamətində fikir mübadiləsi aparıb. Elbrus İsayev beynəlxalq təcrübə proqramlarının tələbələrin peşəkar hazırlığının gücləndirilməsində, nəzəri biliklərin praktik bacarıqlarla möhkəmləndirilməsində və beynəlxalq tibbi təcrübənin mənimsənilməsində mühüm əhəmiyyət daşıdığını vurğulayıb.

Daha sonra qrup rəhbərləri Cerrahpaşa, Ankara, Gazi, Dokuz Eylül, Akdeniz və Karadeniz Teknik universitetlərində keçirilən təcrübələrin nəticələrinə dair təqdimatlarla çıxış edərək tələbələrin klinik hazırlıq prosesi, qazandıqları praktik bacarıqlar və əldə etdikləri təcrübə haqqında ətraflı məlumat veriblər.

Qeyd olunub ki, proqram çərçivəsində universitetin Tibb, Hərbi tibb, Tibb (tədris ingilis dilində), Tibb SABAH qrupları, Stomatologiya, İctimai səhiyyə, Əczaçılıq və Psixologiya ixtisaslarında təhsil alan 221 tələbə, eləcə də 21 nəfər professor-müəllim heyəti Türkiyənin 6 nüfuzlu ali tibb təhsili müəssisəsində təcrübə və ixtisasartırma proramlarında iştirak edib.

Yay təcrübəsi müddətində iştirakçılar terapiya,



cərrahiyyə, pediatriya, ginekologiya, reanimasiya, təcili yardım və digər klinik şöbələrdə praktik hazırlıq keçərək həkimlərin gündəlik fəaliyyətini izləyib, müxtəlif tibbi prosedurlarda iştirak edib, müasir diaqnostika və müalicə üsullarını mənimsəyiblər. Bununla yanaşı, onlar beynəlxalq akademik mühit və Türkiyənin səhiyyə sisteminin təşkili ilə yaxından tanış olublar.



Proqramın sonunda iştirakçılara yay təcrübəsini uğurla başa vurduqlarını təsdiq edən sertifikatlar təqdim edilib.

Hesabat tədbirində çıxış edən tələbələr beynəlxalq yay təcrübəsinin onların peşəkar inkişafında mühüm rol oynadığını bildiriblər. Diqqətə çatdırılıb ki, Naxçıvan Dövlət Universitetində qazandıqları nəzəri biliklər beynəlxalq klinik mühitdə praktik bacarıqlarla tamamlanıb, fərqli səhiyyə sistemini yaxından öyrənmək və yeni təcrübə qazanmaq imkanı yaradıb. Tələbələr bu cür proqramların davamlı təşkilinə görə universitet rəhbərliyinə minnətdarlıqlarını ifadə edərək layihənin gələcək illərdə də davam etdirilməsinin əhəmiyyətini vurğulayıblar.

Qeyd edək ki, Naxçıvan Dövlət Universiteti beynəlxalq tərəfdaş ali təhsil müəssisələri ilə əməkdaşlığın genişləndirilməsi istiqamətində fəaliyyətini davam etdirir. Xaricdə təşkil olunan bu cür təcrübə proqramları universitetin beynəlmiləlləşmə strategiyasının mühüm istiqamətlərindən biri olmaqla yanaşı, yüksəkixtisaslı və rəqabətqabiliyyətli tibb mütəxəssislərinin hazırlanmasına mühüm töhfə verir.

Tibb fakültəsinin nümayəndə heyəti Çində

Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsinin tələbə və müəllim heyəti Çin Xalq Respublikasında səfərdə olub.



Səfərin ilk günündə nümayəndə heyəti Pekinin tarixi və mədəni məkanlarını, o cümlədən Çin səddini, Sənət muzeyini və "İtirilmiş şəhərin divarları"nı ziyarət edib.

Pekin proqramının ardından nümayəndə heyəti Çenqdu şəhərinə yola düşüb. Səfərin növbəti mərhələsində Çenqdu Tibb Universitetində Naxçıvan Dövlət Universitetinin nümayəndə heyətinin rəsmi qarşılanma mərasimi və görüş keçirilib. Görüşdə Çenqdu Tibb Universitetinin Tibb fakültəsinin dekanı, Beynəlxalq Əlaqələr Mərkəzinin direktoru və digər rəsmi şəxslər iştirak ediblər. Qarşılıqlı görüş zamanı hər iki universitetin Tibb fakültəsinin fəaliyyəti, təhsil imkanları və



əsas istiqamətləri barədə ətraflı məlumat verilib. Ardınca tərəflər arasında qarşılıqlı xatirə hədiyyələri təqdim olunub, tələbə və müəllimlərin iştirakı ilə xatirə fotosu çəkdirilib.

Səfərin davamında NDU nümayəndə heyəti Çenqdu Tibb Universitetinin muzeyi, kitabxanası və Alternativ Təbabət Mərkəzi ilə tanış olub. Xüsusilə Alternativ Təbabət Mərkəzinə səfər tələbələr üçün praktik və maarifləndirici baxımdan maraqlı olub. Burada qədim Çin təbabətinin müxtəlif müalicə üsulları – akupunktur, manual terapiya və masaj, eləcə də herbal terapiya, yəni dərman bitkilərindən istifadə əsasında müalicə metodları haqqında məlumat verilib. Tələbələr qədim Çin təbabətinin tətbiq xüsusiyyətləri ilə yaxından tanış olub, mütəxəssislərin iştirakı ilə keçirilən müayinələri izləyib və prosesdə iştirak etmək imkanı əldə ediblər.

Çinə səfər Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsinin tələbə və müəllimlərinin beynəlxalq təcrübə mübadiləsində iştirak etməsi, müxtəlif tibbi yanaşmalarla tanış olması və beynəlxalq əlaqələrin daha da genişləndirilməsi baxımından mühüm əhəmiyyət daşıyır.

NDU tələbəsi ABŞ-nin nüfuzlu Pensilvaniya Universitetində tədqiqat aparacaq



Naxçıvan Dövlət Universitetinin Biologiya ixtisası üzrə IV kurs tələbəsi Fidan Hüseynova beynəlxalq elmi uğura imza atıb.

Fidan Lumiere Tədqiqat və İnklüzivlik Fondu tərəfindən həyata keçirilən Fərdi Tədqiqat Proqramına tədqiqat təqaüdçüsü kimi qəbul olunub və 3390 ABŞ dolları məbləğində 100% maliyyə dəstəyi qazanıb.

Proqram çərçivəsində Fidan fərdi elmi-tədqiqat layihəsi üzərində çalışacaq. Onun tədqiqat layihəsi ABŞ-nin Pensilvaniya Universitetində (University of Pennsylvania) Dr. Elizabeth Hellerin laboratoriyasının elmi istiqamətləri çərçivəsində həyata keçiriləcək. Tədqiqat prosesində tələbəmizə laboratoriyanın tədqiqatçısı Kiara Liz Rodriguez mentorluq edəcək.

Fidanın tədqiqat fəaliyyətinin əsas istiqamətləri:

- Genetika;
- Epigenetika;
- Gen tənzimlənməsi;
- Nevroelm.

Rəqabətli seçim prosesi nəticəsində əldə olunan bu nailiyyət NDU tələbələrinin beynəlxalq elmi-tədqiqat mühitinə inteqrasiyasının və dünyanın qabaqcıl akademik platformalarında qazandıqları uğurların daha bir nümunəsidir.

Anım Gününə həsr olunmuş tədbir

Naxçıvan Dövlət Universitetində 27 Sentyabr – Anım Gününə həsr olunmuş tədbir keçirilib.

Tədbirin əvvəlində Ulu Öndər Heydər Əliyevin və Vətən uğrunda canından keçən şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Azərbaycan Respub-





likasının Dövlət Himni səsləndirilib.

Tədbiri giriş sözü ilə açan NDU-nun rektoru Elbrus İsayev 27 Sentyabr – Anım Gününün Azərbaycanın müasir tarixində xüsusi əhəmiyyət daşıdığını bildirib. Qeyd edib ki, Vətən müharibəsində qazanılan Qələbə dövlətimizin hərbi qüdrətinin, xalqımızın həmrəyliyinin və milli iradəsinin nəticəsidir.

Rektor diqqətə çatdırıb ki, 2023-cü il 19 sentyabrda həyata keçirilən lokal xarakterli antiterror tədbirləri ilə Azərbaycanın dövlət suverenliyi tam təmin olunub. Bu hadisə ölkənin ərazi bütövlüyünün və suverenliyinin bərpası istiqamətində mühüm mərhələ kimi tarixə düşüb.

Elbrus İsayev şəhidlərin əziz xatirəsinin daim ehtiramla yad edilməsinin vacibliyini vurğulayıb. Bildirib ki, Anım Günü gənc nəslin Vətənə bağlılıq, milli-mənəvi dəyərlərə sədaqət və dövlətçilik ruhunda formalaşmasında mühüm rol oynayır.

NDU-nun professoru, fəlsəfə elmləri doktoru, Əməkdar müəllim Məmməd Rzayev çıxışında 44 günlük Vətən müharibəsinin Azərbaycanın müasir tarixindəki rolundan bəhs edib. Professor əldə olunan Qələbənin dövlətimizin ərazi bütövlüyünün bərpası ba-



xımından tarixi hadisə olduğunu bildirib, Zəfərə aparan yolun əsas mərhələlərinə diqqət çəkib.

NDU-nun II kurs magistrantı Yağmur Mahmudova tələbələr adından çıxışında şəhidlərin həyat və mübarizə yolunun gənclər üçün örnək olduğunu bildirib. O, Vətən uğrunda canından keçən qəhrəmanların xatirəsinin yaşadılmasının hər bir gəncin mənəvi borcu olduğunu qeyd edib, tələbələri milli dəyərlərə və dövlətçilik prinsiplərinə bağlı olmağa çağırıb.

Tədbirin sonunda "Qəhrəmanlıq salnaməsi" adlı videoçarx nümayiş etdirilib.



Daha sonra NDU-nun Elmi Kitabxanasında 27 Sentyabr – Anım Günü ilə əlaqədar "Şanlı Zəfər tariximiz" adlı kitab sərgisinə baxış keçirilib. Sərgidə 44 günlük Vətən müharibəsinin tarixini, qəhrəmanlarımızın həyat və döyüş yolunu əks etdirən kitab və jurnallar nümayiş etdirilib.

Həmçinin tədbir iştirakçıları İncəsənət fakültəsinin müəllim və tələbələrinin Anım Gününə həsr olunmuş rəsm sərgisinə də baxış keçiriblər. Sərgidə Təsviri incəsənət müəllimliyi, Rəngkarlıq və Dizayn ixtisasları üzrə tələbələrin 35 rəngkarlıq və kompozisiya işi nümayiş etdirilib. Əsərlərdə Vətən sevgisi, şəhidlərin əziz xatirəsi, qəhrəmanlıq və milli birlik mövzuları əks olunub.

Badəm Əliyeva
Media və ictimaiyyətlə əlaqələr şöbəsinin əməkdaşı

Şəhidlərin əziz xatirəsi ehtiramla yad edilib

27 Sentyabr – Anım Günü ilə əlaqədar Naxçıvan Dövlət Universitetinin rektoru və universitet kollektivi Vətən müharibəsi şəhidlərinin Naxçıvan şəhərində, eləcə də muxtar respublikanın rayon və kəndlərində yerləşən məzarlarını ziyarət edib, şəhid ailələrinə baş çəkiblər.

Məzarların üzərinə gül dəstələri qoyulub, şəhidlərin ruhuna dualar oxunub. Azərbaycanın ərazi bütövlüyü uğrunda canından keçən qəhrəmanların əziz xatirəsi dərin ehtiramla yad edilib.





NDU-da Naxçıvanın milyon illik təbiət tarixini yaşadan muzey: Paleobotanika muzeyi

Naxçıvan Dövlət Universitetində Paleontoloji Tədqiqat Qrupu tərəfindən aparılan elmi-tədqiqat işlərinin nəticəsi olaraq yaradılan Paleobotanika muzeyinin təqdimatı keçirilib.



Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev Paleontoloji Tədqiqat Qrupunun fəaliyyətini yüksək qiymətləndirərək paleontologiyanın Naxçıvanda yeni elmi-tədqiqat istiqaməti kimi əhəmiyyətindən danışıb. Naxçıvanın zəngin geoloji xüsusiyyətlərinin regionun qədim təbiətinin araşdırılması üçün geniş imkanlar yaratdığını bildirən rektor bu sahədə tədqiqatların davam etdirilməsinin vacibliyini vurğulayıb.



Bildirilib ki, tədqiqatların nəticələri əsasında paleobotanikaya dair kitab hazırlanıb, nüfuzlu jurnallarda bir sıra elmi məqalələr çap olunub. Paleobotanikanın Naxçıvan Dövlət Universitetində bakalavriat və magistratura səviyyələrində seçmə fənn kimi tədrisinə başlanılıb, bu isə tələbələrin yeni elmi istiqamət üzrə bilik və tədqiqat bacarıqlarının formalaşdırılmasına imkan yaradır.

Paleontoloji Tədqiqat Qrupunun üzvləri – b.ü.f.d, baş müəllim, Mürsəl Seyidov, baş müəllim Əli Qurbanov və "Biologiya" kafedrasının müdiri, a.e.ü.f.d Bəhruz Bayramov bu istiqamətdə tədqiqatların davamlı şəkildə aparılmasının nəzərdə tutulduğunu bildiriblər.

Qeyd olunub ki, Naxçıvanın müxtəlif ərazilərinə, xüsusilə Havuş kəndinə dəfələrlə təşkil olunan ekspedisiyalar zamanı 440 milyon il əvvələ aid fosil qalıqları

aşkar edilib. Əldə olunan nümunələr əsasında paleontoloji albomun hazırlanması planlaşdırılır.

Yeni yaradılan Paleobotanika muzeyinin universitetdə bu sahə üzrə elmi-tədqiqat və tədris fəaliyyətinin inkişafına, unikal fosil nümunələrinin qorunub nümayiş etdirilməsinə və tələbələrin elmi araşdırmalara cəlb olunmasına töhfə verəcəyi vurğulanıb.

NDU-nun “Enactus” komandası Azərbaycan çempionu olub



Naxçıvan Dövlət Universitetinin “Enactus” komandası 2026-cı il “Enactus Azərbaycan” Milli Yarışının qalibi olub.

Bu, NDU komandasının “Enactus” üzrə 6-cı çempionluğudur.

Yarışda uğur qazanan komanda növbəti mərhələdə Azərbaycanı “Enactus World Cup 2026”da təmsil edəcək. Dünya Kuboku bu il Braziliyada keçiriləcək.

NDU-nun “Enactus” komandası tələbələrin innovativ ideyalarının dəstəklənməsi, layihələrin reallaşdırılması və beynəlxalq təcrübənin təşviqi istiqamətində yaradılan imkanlardan yararlanaraq növbəti böyük uğura imza atıb.

NDU-nun “Enactus” komandası ilə qürur duyuruq!



Rektor “Enactus” çempionu olan komanda ilə görüşüb







Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev 2026-cı il “Enactus Azərbaycan” Milli Yarışının çempionu olan universitet komandası ilə görüşüb.

Elbrus İsayev çıxışında komandanın əldə etdiyi uğurun universitet üçün əhəmiyyətini vurğulayıb. Tələbələrin təşəbbüskarlığını və fəallığını yüksək qiymətləndirən rektor NDU komandasının yeni layihələrdə də uğur qazanacağına inandığını bildirib və onlara 16-19 noyabr tarixlərində Braziliyanın San-Paulu şəhərində keçiriləcək “Enactus” Dünya Çempionatında uğurlar arzulayıb.

Görüşün sonunda komanda üzvlərinə təşəkkürnamələr və müxtəlif hədiyyələr təqdim olunub.

Qeyd edək ki, NDU komandası 2026-cı il “Enactus Azərbaycan” Milli Yarışında çempion olaraq universitetin bu istiqamətdə 6-cı qələbəsinə imza atıb.

Çin dili ixtisasına qəbul olunan tələbələrlə görüş

Naxçıvan Dövlət Universitetində ali təhsil müəssisəsinin beynəlxalq əlaqələrinin genişləndirilməsi, əmək bazarının müasir tələblərinə cavab verən kadrların hazırlanması istiqamətində növbəti vacib addım atılıb. Cari tədris ilində ali təhsil ocağında ilk dəfə tələbə qəbulu aparılan “Tərcümə (Çin-Azərbaycan dilləri)” ixtisasında təhsilə başlayan I kurs tələbələri ilə rektor Elbrus İsayevin görüşü keçirilib. Görüş zamanı diqqətə çatdırılıb ki, yeni yaradılan ixtisasa abituriyentlər tərəfindən böyük maraq göstərilib və tədris ili üçün ayrılmış 15 plan yerindən 14-ü dolub. Bu yüksək göstərici ölkəmizdə və regionda Çin dilinə, mədəniyyətinə, eləcə də Çin Xalq Respublikası ilə günügündən dərinləşən iqtisadi-mədəni əlaqələrə olan marağın bariz nümunəsi kimi qiymətləndirilib. Tələbələrin Çin dilini mükəmməl mənimsəmələri, həm şifahi, həm də yazılı tərcümə vərdişlərinə yiyələnmələri üçün universitetdə hərtərəfli tədris mühiti və müasir texniki imkanlar yaradılıb. Tədrisin yüksək beynəlxalq standartlara cavab verməsini təmin etmək məqsədilə dərslərə Çin Xalq Respublikası və Türkiyə Respublikası vətəndaşı olan peşəkar müəllim heyəti və sahə



mütəxəssisləri cəlb olunub. Bu da tələbələrə canlı dil mühitində təhsil almaq və dili birbaşa xarici mütəxəssislərdən öyrənmək fürsəti verir.

Səmimi dialoq formatında davam edən görüşdə rektor Elbrus İsayev tələbələrin dərs prosesi, tədris şəraiti, maraq dairələri və gələcək karyera planları ilə yaxından maraqlanıb. Rektor vurğulayıb ki, Azərbaycan ilə Çin arasında sürətlə inkişaf edən siyasi,



iqtisadi, diplomatik və mədəni əlaqələr fonunda bu ixtisasın məzunlarına gələ- cəkdə həm yerli, həm də beynəlxalq əmək bazarında böyük tələbat olacaq.

Sonda universitet rəhbərliyi yeni ixtisasın ilk tələbələrini təbrik edib, onlara təhsillərində bol uğurlar və gələcək peşə fəaliyyətlərində yeni-yeni nailiyyətlər arzulayıb.

NDU-da “Dizayn və memarlıq” sərgisi keçirilib

Memarlıq Günü münasibətilə Naxçıvan Dövlət Universitetinin İncəsənət fakültəsinin Dizayn ixtisası və “Planet Dizayn” MMC-nin birgə təşkilatçılığı ilə “Dizayn və memarlıq” adlı sərgi keçirilib.

“Memarlıq və şəhərsalma ili” çərçivəsində görkəmli memar Əcəmi Naxçıvaninin 900 illik yubileyinə həsr olunan sərgidə müəllim və tələbələrin müxtəlif janr və üslublarda hazırladıqları yaradıcılıq nümunələri nümayiş etdirilib.

Sərgidə 40 dizayn layihəsi və 60 stilizasiya işi olmaqla, ümumilikdə 100 yaradıcılıq nümunəsi təqdim olunub. İşlərdə milli memarlıq irsinin müasir dizayn prinsipləri ilə vəhdəti, tələbələrin yaradıcı yanaşmaları və peşə bacarıqları öz əksini tapıb.







Yarım əsrdən artıq elmi-pedaqoji fəaliyyət göstərən alim təqaüdə yola salındı

Naxçıvan Dövlət Universitetində 52 illik elmi-pedaqoji fəaliyyətini başa vuran Fizika-riyaziyyat fakültəsinin "Ümumi və nəzəri fizika" kafedrasının dosenti, fizika-riyaziyyat üzrə fəlsəfə doktoru Fərman Qocayev təqaüdə yola salınıb.

Tədbirdə çıxış edən NDU-nun rektoru Elbrus İsayev alimin yarım əsrdən artıq müddətdə universitetin elmi və akademik inkişafına, fizika elminin tədrisinə və ixtisaslı kadrların hazırlanmasına mühüm töhfələr verdiyini bildirib, ona çoxillik səmərəli fəaliyyətinə görə təşəkkür edib.

Fizika-riyaziyyat fakültəsinin dekanı Vüqar Salmanov, "Ümumi və nəzəri fizika" kafedrasının müdiri Billurə Hacıyeva və digər çıxışçılar Fərman Qocayevin keçdiyi elmi-pedaqoji yoldan və tələbələrin yetişdirilməsindəki xidmətlərindən danışıblar.

Qeyd olunub ki, 1968-1971-ci illərdə Azərbaycan Elmlər Akademiyasının Fizika İnstitutunda aspirantura təhsili alan Fərman Qocayev Azərbaycanda yarımkeçiricilərin nazik təbəqələrinin tətbiqi istiqamətində ilk tədqiqatlar aparan alimlərdəndir. 2007-ci ildə alim Azərbaycan Respublikası Prezidentinin Sərəncamı əsasında "Tərəqqi" medalı ilə təltif olunub.





Fərman Qocayev 52 illik fəaliyyəti ərzində 5000-dən çox tələbəyə dərs dediyini və 5 fəlsəfə doktoru yetişdirdiyini bildirib, göstərilən diqqətə görə universitet rəhbərliyinə və kollektivə təşəkkür edib.

Sonda alimə NDU-nun rektoru Elbrus İsayev tərəfindən "Təşəkkürnamə" təqdim olunub.



NDU nəzdində Gimnaziyanın iki məzunu qızıl nişanla təltif olunub

Naxçıvan Dövlət Universiteti nəzdində Gimnaziyanın 2025-2026-cı tədris ili üzrə məzunları Hüseyn Tahirov və Kənan Məmmədzadə təhsillərini xüsusi nailiyyətlə başa vurduqlarına görə qızıl nişanla təltif olunublar.

Qızıl nişana layiq görülən məzunlardan Hüseyn Tahirov Naxçıvan Dövlət Universitetinin Kompüter mühəndisliyi ixtisasına qəbul olunub. Hüseyn Tahirovun orta təhsil pilləsində qazandığı yüksək nəticə ilə ali təhsilini NDU-da davam etdirməsi Gimnaziya-universitet təhsil modelinin uğurlu nümunələrindən biri kimi qiymətləndirilə bilər.

Qeyd edək ki, Gimnaziya 2025-2026-cı tədris ilində 100 faizlik nəticə göstərib, 54 məzunun hər biri ali təhsil müəssisələrinə qəbul olunub. Məzunlardan 16 nəfər 600-dən, 31 nəfər isə 500-dən yuxarı bal toplayıb, 30 nəfər fərqlənmə attestatına, 2 nəfər isə qızıl nişana layiq görülüb.

Milli Musiqi Gününə həsr olunmuş tədbir



Naxçıvan Dövlət Universitetində 18 Sentyabr – Milli Musiqi Günü münasibətilə tədbir təşkil olunub.

Konservatoriya binasının həyətində "Nəfəsli alətlər" orkestrinin ifası ilə başlayan tədbir mərtəbələr üzrə müxtəlif musiqi nömrələri ilə davam edib. "Arşın mal alan" əsərindən səhnəcik, "Cəngi" və "Uzundərə" rəqsləri, eləcə də simli kvartetin ifasında "Arazbarı" əsəri təqdim olunub.

Ardınca İncəsənət fakültəsinin müəllim və tələbələrinin əl işlərindən ibarət rəsm sərgisinə baxış keçirilib. Sərgidə musiqi mövzulu kompozisiyalar, rəngkarlıq, stilizasiya və heykəltəraşlıq nümunələrindən ibarət 50-dən çox yaradıcılıq işi nümayiş olunub.

Tədbirin rəsmi hissəsi Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başlayıb.

Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev çıxışında Azərbaycan musiqisinin zəngin ənənələrindən və milli mədəniyyətimizin dünyada tanıdılmasında musiqi sənətinin rolundan bəhs edib. Rektor peşəkar Azərbaycan musiqisinin banisi Üzeyir Hacıbəyli-



ni dərin hörmət və ehtiramla anaraq onun Azərbaycan musiqisinin və mədəniyyətinin inkişafındakı misilsiz xidmətlərindən danışıb, bəstəkarın ədəbi-bədii və ictimai-siyasi fəaliyyətinə də diqqət çəkib. Vurğulayıb ki, Üzeyir Hacıbəylinin anadan olmasının 100 illik yubileyi ərəfəsində Ulu Öndər Heydər Əliyevin Sərəncamı ilə 18 sentyabr Azərbaycanda Milli Musiqi Günü kimi təsis edilib. O gündən etibarən bu əlamətdar tarix Azərbaycan musiqisinin bayramı kimi qeyd olunur.



Elbrus İsayev Naxçıvan Dövlət Universitetində milli musiqi sənətinin inkişafına xüsusi diqqət göstərildiyini qeyd edib. Konservatoriyanın müəllim və tələbələrinin bu istiqamətdə gördüyü işləri yüksək qiymətləndirərək universitetdə musiqi sənətinin inkişafına verdikləri töhfələrə görə təşəkkürünü bildirib. Rektor bu istiqamətdə görülən işlərin bundan sonra da davam etdiriləcəyini, gənc musiqiçilərin yaradıcılıq imkanlarının genişləndirilməsi və milli musiqi ənənələrinin yaşadılması üçün yeni addımlar atılacağını vurğulayıb.

"Musiqi nəzəriyyəsi" kafedrasının baş müəllimi Rumiyyə Məmmədova çıxışında Üzeyir Hacıbəylinin Azərbaycan musiqi sənətinin inkişafında əvəzsiz mövqeyindən danışıb.

Konsert proqramının davamında Prezident mükafatçısı, NDU-nun müəllimi Sahil Qasımovun bədii rəhbəri olduğu "Gənclik" instrumental ansamblının ifasında Həsən Rzayevin "Çahargah rapsodiyası" səsləndirilib. Prezident



mükafatçıları İsrafil Qibləliyev və İlkin Abdullayev, Naxçıvan Muxtar Respublikasının Əməkdar artisti Zülfüqar Mahmudov və universitet əməkdaşı Elmar Qasımovun ifaları ilə Azərbaycan bəstəkarlarının əsərləri dinləyicilərə təqdim olunub.

Konsert proqramı tamaşaçılarda xoş ovqat yaradıb, alqışlarla qarşılanıb.

Naxçıvan Dövlət Universitetinin ali təhsil müəssisələrinin sərgisindəki iştirakı uğurla yekunlaşıb

Naxçıvan Dövlət Universitetinin Dövlət İmtahan Mərkəzinin təşkilatçılığı ilə keçirilən ali təhsil müəssisələrinin sərgisindəki iştirakı uğurla yekunlaşıb.

Üç gün davam edən sərgidə NDU-nun nümayəndə heyəti abituriyent və valideynləri universitetdə tədris olunan ixtisaslar, beynəlxalq əməkdaşlıq proqramları, təqaüd və sosial dəstək imkanları, eləcə də tələbə həyatı ilə tanış edib. Sərgi müddətində universitetin stendinə 2000-ə yaxın ziyarətçi yaxınlaşaraq onları maraqlandıran suallara cavab alıb və qəbul prosesi ilə bağlı ətraflı məlumat əldə edib.

Sərgi günlərində Dövlət İmtahan Mərkəzinin İdarə Heyətinin sədri Məleykə Abbaszadə və nümayəndə




heyəti də Naxçıvan Dövlət Universitetinin stendini ziyarət edib. Görüş zamanı universitetin 2026-2027-ci tədris ili üçün nəzərdə tutulan yeniliklər və təhsil imkanları barədə məlumat verilib.

Sərgi Naxçıvan Dövlət Universitetinin təhsil imkanlarının geniş auditoriyaya təqdim edilməsi və abituriyentlərin gələcək ixtisas seçiminə dəstək göstərilməsi baxımından əhəmiyyətli platforma olub.

Qeyd edək ki, sərgidə Təhsil Tələbə Kredit Fondu, "Abituriyent" jurnalı redaksiyası, eləcə də ölkədə fəaliyyət göstərən 40-a yaxın dövlət və özəl ali təhsil müəssisəsi təmsil olunub.

KİTAB TƏQDİMATLARI

Teatrşünaslıq sahəsində yeni monoqrafiya



NDU Elmi Kitabxanasında "Teatr və mədəniyyətşünaslıq" kafedrasının müdiri, filologiya üzrə fəlsəfə doktoru, dosent, Azərbaycan Respublikasının Əməkdar Mədəniyyət işçisi Gülxarə Əhmədovanın müəllifi olduğu "Məktəb teatrı" adlı monoqrafiyanın təqdimatı keçirilib.

Tədbiri giriş sözü ilə açan Elmi Kitabxananın direktoru, filologiya üzrə fəlsəfə doktoru, dosent Xumar Məmmədova son dövrlər universitet əməkdaşları tərəfindən incəsənət və mədəniyyət tarixinə həsr olunmuş kitabların yazılmasını yüksək qiymətləndirib.

Daha sonra İncəsənət fakültəsinin dekanı, "Təsviri incəsənət" kafedrasının dosenti, Naxçıvan MR Əməkdar rəssamı Cavid İsmayılov, "Teatr və mədəniyyətşünaslıq" kafedrasının baş müəllimi, Azərbaycan Respublikasının Əməkdar artisti Kamran Quliyev, "Teatr və mədəniyyətşünaslıq" kafedrasının müəllimi, Azərbaycan Respublikasının Əməkdar artisti Tofiq Seyidov,



M.T.Sidqi adına Naxçıvan Dövlət Kukla Teatrının direktoru Səyyad Məmmədov, Naxçıvan Dövlət Uşaq Teatrının quruluşçu rejissoru, Azərbaycan Respublikasının Əməkdar artisti Nurbəniz Niftəliyeva və digər çıxışçılar teatrşünaslar, tədqiqatçılar və geniş oxucu kütləsi üçün nəzərdə tutulmuş monoqrafiyanın elmi-metodoloji əhəmiyyətindən bəhs ediblər.


Qeyd olunub ki, iki fəsildən ibarət olan kitabda XIX-XX əsrlərdə Azərbaycan dramaturgiyasının inkişaf xüsusiyyətlərindən, milli teatrın yaranması və inkişafından, məktəb teatrının təşəkkülü və inkişaf mərhələlərindən bəhs olunur. Eyni zamanda monoqrafiyada Naxçıvan Dövlət Universitetinin Tələbə Teatr Studiyasının fəaliyyəti işıqlandırılıb.

Sonda çıxış edən müəllif tədbirin təşkilinə görə universitet rəhbərliyinə minnətdarlığını bildirib.



Naxçıvan florasına həsr olunmuş monoqrafiyanın təqdimatı

Naxçıvan Dövlət Universitetinin Elmi Kitabxanasında "Təməl tibb fənləri" kafedrasının müdiri, biologiya üzrə fəlsəfə doktoru Əzizə Hüseynovanın müəllifi olduğu "Naxçıvan MR Nepetoideae Kostel yarımfəsiləsinə daxil olan bəzi növlərin bioekoloji xüsusiyyətləri, ehtiyatı və səmərəli istifadəsi" adlı monoqrafiyanın təqdimatı keçirilib.



Tədbirdə NDU Elmi Kitabxanasının direktoru, filologiya üzrə fəlsəfə doktoru, dosent Xumar Məmmədova, Elmi fəaliyyətin təşkili və təhlili şöbəsinin müdiri Ənvər İbrahimov, Tibb fakültəsinin dekanı Şəfiqə Süleymanova, "Klinik fənlər və hərbi tibb" kafedrasının müdiri, tibb üzrə fəlsəfə doktoru, dosent Gültəkin Əliyeva, "Təməl tibb fənləri" kafedrasının



dosenti, biologiya üzrə fəlsəfə doktoru Südabə Həsənova və digər əməkdaşlar iştirak ediblər.

Çıxışlarda monoqrafiyanın Naxçıvanın zəngin florasının öyrənilməsi, eləcə də bitki ehtiyatlarından səmərəli istifadənin elmi əsaslarının müəyyənləşdirilməsi baxımından əhəmiyyəti vurğulanıb.



Bildirilib ki, nəşrdə Naxçıvan Muxtar Respublikasının florası, Lamiaceae Martinov fəsiləsinə daxil olan bitkilərin sistematik və biomorfoloji xüsusiyyətləri, həmçinin bitki ehtiyatlarının hesablanması metodları araşdırılıb. Eyni zamanda Nepetoideae Kostel yarımfəsiləsinə aid bəzi növlərin bioekoloji və fitosenoloji xüsusiyyətləri, təbii ehtiyatları, farmakoloji potensialı və tətbiq imkanları təhlil edilib.

Sonda müəllif Əzizə Hüseynova göstərilən diqqət və dəstəyə görə minnətdarlığını bildirib.

Riyaziyyat müəllimləri üçün yeni dərs vəsaiti

Naxçıvan Dövlət Universitetinin Elmi Kitabxanasında "Tədrisin təşkili" şöbəsinin müdiri, pedaqogika üzrə fəlsəfə doktoru Aynurə Seyidova və Sumqayıt Dövlət Universitetinin "Riyaziyyat" kafedrasının dosenti, riyaziyyat üzrə fəlsəfə doktoru Könül Əliyevanın həmmüəllifi olduqları "Riyaziyyatın tədrisi metodikası" adlı dərs vəsaitinin təqdimatı keçirilib.

Elmi Kitabxananın direktoru, filologiya üzrə fəlsəfə doktoru, dosent Xumar Məmmədova çıxış edərək dərs vəsaitinin "Riyaziyyat müəllimliyi" və "Riyaziyyat və informatika müəllimliyi" ixtisasları üzrə təhsil alan tələbələr üçün hazırlandığını bildirib. Qeyd olunub ki, nəşrdə riyaziyyatın tədrisində müasir metod və yanaşmalar, təlimin təşkili prinsipləri və qiymətləndirmə üsulları əhatə olunub.

Fizika-riyaziyyat fakültəsinin dekanı, riyaziyyat üzrə fəlsəfə doktoru, dosent Vüqar Salmanov kitab haqqında ətraflı məlumat verib. Bildirilib ki, 13 fəsildən ibarət vəsaitdə riyaziyyatın tədrisi metodikası, təlim metodlarının seçilməsi, tədris materiallarının müəyyənləşdirilməsi və onların orta məktəb təliminə uyğunlaşdırılması məsələlərinə toxunulub.

Tədbirdə "Ümumi riyaziyyat" kafedrasının dosenti Orxan Cəfərov, kafedra müdiri Abdulla Həsənov, "Ümumi və nəzəri fizika" kafedrasının müdiri Billurə Hacıyeva, Fizika-riyaziyyat fakültəsinin dekan müavini Ruhiyyə Cəfərova və "Ümumi riyaziyyat" kafedrasının baş müəllimi Cavanşir Quliyev və digərləri çıxış ediblər. Çıxışlarda riyaziyyatın tədrisində metod və prinsiplərin əhəmiyyəti vurğulanıb, vəsaitin gələcək müəllimlərin peşəkar hazırlığı baxımından əhəmiyyəti qeyd olunub.






Həmmüəlliflərdən Könül Əliyeva onlayn formatda, Aynurə Seyidova isə tədbirdə çıxış edərək kitabın hazırlanma prosesindən, qarşıya qoyduqları məqsədlərdən və nəşrin ərsəyə gəlməsi istiqamətində görülən işlərdən danışıblar. Müəlliflər çəkilən əməyin nəticəsindən məmnunluğunu ifadə edərək göstərilən diqqət və dəstəyə görə təşəkkürlərini bildiriblər.

Sonda müəllif Aynurə Seyidovaya gül dəstələri təqdim olunub.


NDU-da növbəti kitab təqdimatı: “Sosial media platformalarında Azərbaycan ədəbiyyatının təbliği”

Naxçıvan Dövlət Universitetində Elmi fəaliyyətin təşkili və təhlili şöbəsinin baş mütəxəssisi Zamin Babazadə və Tarix-filologiya fakültəsinin Azərbaycan dili və ədəbiyyatı müəllimliyi ixtisası üzrə IV kurs tələbəsi Murad Qənbərovun həmmüəllifi olduqları “Sosial media platformalarında Azərbaycan ədəbiyyatının təbliği” kitabının təqdimatı keçirilib.



Tədbiri giriş sözü ilə açan Elmi fəaliyyətin təşkili və təhlili şöbəsinin müdiri Ənvər İbrahimov hər iki müəllifi təbrik edib, onlara gələcək yaradıcılıq fəaliyyətlərində uğurlar arzulayıb. Ənvər İbrahimov qeyd edib ki, sosial media elmi araşdırmaların və milli-mədəni dəyərlərin geniş auditoriyaya çatdırılmasında





mühüm vasitələrdən biridir. Bildirib ki, kitabın strukturunun sistemli şəkildə qurulması və mövzunun elmi əsaslarla təqdim olunması bu nəşrin gələcək tədqiqatçılar üçün dəyərli arxiv və istinad mənbəyi kimi istifadə olunmasına imkan yaradır.

Zamin Babazadə kitab haqqında məlumat verərək nəşrdə sosial media platformalarının milli-mədəni irsin təbliğində rolu, mövcud problemlər, aparılan araşdırmalar və əldə olunan nəticələrin əks olunduğunu bildirib. Vurğulayıb ki, tədqiqat çərçivəsində müxtəlif sorğular keçirilib və onların nəticələri də kitabda öz əksini tapıb.

Tədbirdə Tarix-filologiya fakültəsinin dekanı Arif Ağalarov, “Ədəbiyyat və kitabxanaçılıq” kafedrasının müdiri Nurlana Əliyeva və “Jurnalistika və rəqəmsal media” kafedrasının müdiri Şəhla Şirəliyeva çıxış edərək kitabın aktuallığını və elmi əhəmiyyətini qeyd ediblər.


“Azərbaycan dilçiliyi” kafedrasının dosenti Arifə Zeynalova və Elmi fəaliyyətin təşkili və təhlili şöbəsinin aparıcı mütəxəssisi Gülsüm Kərimova da müəllifləri təbrik edib, onlara gələcək fəaliyyətlərində uğurlar arzulayıblar.

Həmmüəllif Murad Qənbərov çıxışında universitet rəhbərliyinə, müəllimlərinə və tədbir iştirakçılarına minnətdarlığını bildirib.

Sonda xatirə fotosu çəkdirilib.

İnformasiya texnologiyaları sahəsində yeni dərs vəsaiti təqdim olunub

NDU Elmi Kitabxanasında “Elektronika və informasiya texnologiyaları” kafedrasının müdiri, texnika üzrə fəlsəfə doktoru Hüseyn Qasımovun müəllifi olduğu “Kompüter xidmət proqramları” adlı dərs vəsaitinin təqdimatı keçirilib.



Tədbiri giriş sözü ilə açan Elmi Kitabxananın direktoru, filologiya üzrə fəlsəfə doktoru, dosent Xumar Məmmədova son dövrlər tələbələrin peşə hazırlığının artırılmasına və kompüter sistemləri ilə effektiv işləmə bacarıqlarının formalaşdırılmasına xidmət edən tədris vəsaitlərinin yazılmasının ənənə halını aldığını qeyd edib.

Daha sonra Memarlıq və mühəndislik fakültəsinin dekanı, riyaziyyat elmləri doktoru, professor Cavanşir Zeynalov, “Elektroenergetika mühəndisliyi” kafedrasının müdiri, fizika üzrə fəlsəfə doktoru, dosent Məftun Əliyev, “Meliorasiya və ekologiya mühəndisliyi” kafedrasının müdiri, aqrar elmlər üzrə fəlsəfə doktoru, dosent Cabbar Nəcəfov və digər çıxışçılar vəsaiti tədris edilən mövzunun müasir elmi nailiyyətlərə,





əsas xidmət proqramlarının funksional imkanları və tətbiq sahələri sistemli şəkildə izah olunub.

Sonda çıxış edən müəllif göstərilən diqqət və qayğıya görə universitet rəhbərliyinə öz minnətdarlığını bildirib.

“Hərbi vətənpərvərlik tərbiyəsi” adlı dərs vəsaitinin təqdimatı keçirilib




Naxçıvan Dövlət Universitetinin Elmi Kitabxanasında “Çağırışaqədərki hazırlıq və mülki müdafiə” kafedrasının baş müəllimi Cavanşir Zeynallının müəllifi olduğu “Hərbi vətənpərvərlik tərbiyəsi” adlı dərs vəsaitinin təqdimatı keçirilib.

Tədbirdə NDU-nun “Elmi fəaliyyətin təşkili və təhlili” şöbəsinin müdiri, biologiya elmləri doktoru, dosent Ənvər İbrahimov, Pedaqoji fakültənin dekanı, pedaqogika üzrə fəlsəfə doktoru, dosent Vəli Əliyev, “Çağırışaqədərki hazırlıq və mülki müdafiə” kafedrasının müdiri, dosent Valeh Əlixanov və digər müəllimlər iştirak ediblər.

Çıxışlarda dərs vəsaitinin elmi-metodik əhəmiyyəti vurğulanıb, hərbi vətənpərvərlik tərbiyəsinin gənc nəslin dünyagörüşünün formalaşmasında və milli-mənəvi dəyərlərə bağlılığının gücləndirilməsində rolu qeyd olunub.

İki fəsildən ibarət olan dərs vəsaitində müasir dövrdə hərbi vətənpərvərlik tərbiyəsinin əhəmiyyəti və xüsusiyyətləri, eləcə də ali məktəblərdə tələbələrin hərbi vətənpərvərlik tərbiyəsinin səmərəli təşkili məsələləri əhatə olunub.




Sonda müəllif Cavanşir Zeynallı dərs vəsaitinin hazırlanmasına göstərilən diqqət və qayğıya görə minnətdarlığını bildirib.

Vətən müdafiəçilərinin yetişdirilməsinə dəyərli töhfə

Naxçıvan Dövlət Universitetinin Elmi Kitabxanasında Pedaqoji fakültənin "Çağırışaqədərki hazırlıq və mülki müdafiə" kafedrasının baş müəllimi Nazim Həsənovun müəllifi olduğu "Gənclərin çağırışaqədərki hazırlığının nəzəriyyəsi və tədris metodikası" adlı dərs vəsaitinin təqdimatı keçirilib.

Tədbiri giriş sözü ilə açan Elmi Kitabxananın direktoru, filologiya üzrə fəlsəfə doktoru, dosent Xumar Məmmədova nəşrin əhəmiyyətindən danışıb. Bildirilib ki, dərs vəsaiti gənclərin hərbi-vətənpərvərlik ruhunda tərbiyəsi, hərbi xidmətə hazırlanması, eləcə də







dövlətçiliyin müdafiəsi ilə bağlı zəruri bilik və bacarıqların formalaşdırılmasına xidmət edir.


Pedaqoji fakültənin dekanı, pedaqogika üzrə fəlsəfə doktoru, dosent Vəli Əliyev, "Çağırışaqədərki hazırlıq və mülki müdafiə" kafedrasının müdiri, dosent Valeh Əlixanov, həmin kafedranın dosenti Oktay Rzayev və baş müəllimi Cavanşir Zeynallı dərs vəsaitinin məzmunu və elmi-metodik əhəmiyyətindən danışıblar. Qeyd olunub ki, 9 fəsildən ibarət nəşrdə çağırışaqədərki hazırlığın təşkili və planlaşdırılması, tədris metodikası, maddi-texniki təminat, topoqrafik hazırlıq, azimutla hərəkət, mülki müdafiə, fövqəladə hallar və ilk tibbi yardım kimi istiqamətlər əhatə olunub. Nəşrdə, həmçinin Vətən müharibəsində şəhid olmuş çağırışaqədərki hazırlıq müəllimləri barədə məlumatlar yer alıb.

Tədbirdə müəllifin övladları Mələk Həsənova, Nərmin Həsənova və Azad Həsənov da çıxış edərək atasını yeni nəşr münasibətilə təbrik edib, ona uğurlar arzulayıblar. Övladları tərəfindən müəllifə gül dəstəsi və müxtəlif hədiyyələr təqdim olunub.

Sonda müəllif Nazim Həsənov göstərilən diqqət və dəstəyə görə minnətdarlığını bildirib.

Gələcəyin mütəxəssisləri üçün fundamental mənbə

Naxçıvan Dövlət Universitetinin Elmi Kitabxanasında "Biologiya" kafedrasının müəllimi, biologiya üzrə fəlsəfə doktoru Səfurə Babayevanın müəllifi olduğu "Botanika" dərsliyinin təqdimat mərasimi keçirilib.



Tədbirdə Elmi Kitabxananın direktoru, filologiya üzrə fəlsəfə doktoru, dosent Xumar Məmmədova, Təbiətşünaslıq və kənd təsərrüfatı fakültəsinin dekanı, biologiya üzrə elmlər doktoru, professor Daşqın Qənbərov, dekan müavini Hilal Qasımov, "Biologiya" kafedrasının müdiri Bəhruz Bayramov, "Kimya" kafedrasının dosenti Bəhruz Məmmədov və digər professor-müəllim heyəti iştirak ediblər.



Tədbirdə çıxış edənlər nəşrin elmi, nəzəri və metodiki əhəmiyyətindən geniş bəhs edərək, dərsliyin gələcək mütəxəssislərin peşəkar hazırlığındakı rolunu yüksək qiymətləndiriblər. Qeyd olunub ki, 15 fəsildən ibarət olan bu dərslik Torpaqşünaslıq və aqrokimya ixtisası üzrə təhsil alan bakalavr tələbələri üçün xüsusi olaraq hazırlanıb. Nəşrdə botanika elminin əsas istiqamətləri, bitkilərin anatomiya və morfologiyası, onların inkişafı, çoxalma xüsusiyyətləri və ətraf mühitlə qarşılıqlı əlaqəsi müasir elmi yanaşmalara uyğun şəkildə, sistemli və əhatəli tərzi ilə təqdim edilib.



Sonda müəllif Səfurə Babayeva çıxış edərək dərsliyin ərsəyə gəlməsində göstərilən diqqət, qayğı və dəstəyə görə universitet rəhbərliyinə və tədbir iştirakçılarına öz dərin minnətdarlığını bildirib.

"İdman və sağlam həyat tərzi" adlı monoqrafiyanın təqdimatı



Naxçıvan Dövlət Universitetinin Elmi Kitabxanasında "Çağırışaqədərki hazırlıq və mülki müdafiə" kafedrasının baş müəllimi Vidadi Salmanovun müəllifi olduğu "İdman və sağlam həyat tərzi" adlı monoqrafiyanın təqdimat mərasimi keçirilib.

Tədbirdə Elmi Kitabxananın direktoru, filologiya üzrə fəlsəfə doktoru, dosent Xumar Məmmədova, Pedaqoji fakültənin dekanı, pedaqogika üzrə fəlsəfə doktoru, dosent Vəli Əliyev, "Çağırışaqədərki hazırlıq və mülki müdafiə" kafedrasının müdiri, dosent Valeh Əlixanov, "Pedaqogika və psixologiya" kafedrasının müdiri, pedaqogika üzrə fəlsəfə doktoru, dosent Taleh Xəlilov və akademik heyətin digər nümayəndələri iştirak ediblər.

Çıxış edənlər nəşrin elmi-nəzəri əhəmiyyətini vurğulayaraq, monoqrafiyanın gənclər arasında idmanın,



fiziki tərbiyənin və sağlam həyat tərzinin təbliği baxımından dəyərli bir mənbə olduğunu bildiriblər.

Üç fəsildən ibarət olan monoqrafiyada sağlam həyat tərzinin formalaşmasında idmanın pedaqoji və metodoloji əsasları, kütləvi idmanın nəzəri prinsipləri, eləcə də Naxçıvan Muxtar Respublikasında müasir idmanın peşəkar növlərinin inkişaf dinamikası və gələcək perspektivləri geniş təhlil olunub.



Sonda müəllif Vidadi Salmanov çıxış edərək elmi fəaliyyətinə göstərilən diqqət və qayğıya görə universitet rəhbərliyinə, tədbir iştirakçılarına və həmkarlarına dərin minnətdarlığını bildirib.

Müstəqillik illərində Azərbaycan-Türkiyə dostluq əlaqələri

Azərbaycan xalqı ikinci dəfə dövlət müstəqilliyini elan edərkən dövlətimizi ilk tanıyan və onunla diplomatik əlaqələr quran Türkiyə Cümhuriyyəti olmuşdur. Xüsusən tarixin ən çətin mərhələlərində Naxçıvana mənəvi, siyasi dayaq olmuş, onun doğma Azərbaycandan ayrılıb düşmən əlinə keçməsinin qarşısını alan, bölgənin muxtariyyətinin beynəlxalq qarantı da məhz Türkiyə dövləti, türk xalqı olmuşdur.

Ölkəmiz müstəqillik əldə etdiyi dövrdə Naxçıvanda çox gərgin vəziyyət yaranmışdı. Qondarma Dağlıq Qarabağ problemi Naxçıvanın ictimai-siyasi, iqtisadi vəziyyətinə mənfi təsir göstərmişdi. Naxçıvanı Azərbaycanın digər əraziləri ilə birləşdirən dəmir yolunun Ermənistan ərazisindən keçən hissəsinin ermənilər tərəfindən bağlanılması, qaz, elektrik, kommunikasiya xətlərinin kəsilməsi bu vəziyyəti daha da ağırlaşdırmışdı.

Naxçıvanın üzləşdiyi ağır iqtisadi böhranın nəticələrini aradan qaldırmaq üçün böyük dövlət xadimi Heydər Əliyevin mühüm addımlar atmasına və yorulmaq bilmədən çalışmasına baxmayaraq muxtar respublikada vəziyyət mürəkkəb və gərgin olaraq qalırdı. Çünki yanacağı, ərzaq məhsullarının çox hissəsini, bəzi tikinti materiallarını Bakıdan alan Naxçıvan son dərəcə çətin bir vəziyyətdə qalmışdı. Ermənistan ərazisindən keçən dəmir yolunun işləməməsi nəticəsində həmin məhsulların Naxçıvana gətirilməsi qeyri-mümkün idi. Belə bir ağır vaxtda Bakı ilə əlaqə yalnız hava yolu vasitəsilə saxlanılırdı ki, hava yolu ilə də Naxçıvanın tələbatını ödəmək olmazdı. O zaman Naxçıvan MR Ali Məclisi vəziyyətdən çıxmaq üçün Naxçıvana gələn avtobusların, yük maşınlarının Xudafərindən İran ərazisinə keçib oradan Culfaya gəlmələri təklifi ilə çıxış etsə də, bu təklifin həyata keçirilməsi istər Azərbaycanda, istərsə də İranda bəzi qüvvələrin günahı, Naxçıvana ögey münasibəti ucbatından mümkün olmadı. Belə bir zamanda Türkiyə dövləti ilə əlaqələrin yenidən qurulması üçün mühüm işlər görüldü.

Qeyd edək ki, bu əlaqələrin qurulması istiqamətində ilk addımlar hələ SSRİ-nin dağılması ərəfəsində atılmışdı. 1990-cı ildən başlayaraq Azərbaycanla Türkiyə arasında bir sıra sahələr üzrə müqavilələr imzalanmışdı. Həmin il yanvarın 10-da Azərbaycan Respublikası ilə Türkiyə Cümhuriyyəti arasında sərhəd ticarətinə dair protokol, həmçinin iki ölkə arasında 1990-1992-ci illəri əhatə edərək mədəniyyət və elmi mübadilə proqramı haqqında sənəd imzalandı. Bu sənədlərlə Naxçıvan Muxtar Respublikasının qonşu ölkə ilə birbaşa əlaqələr qurması da öz əksini tapmışdır.

Türkiyə ilə Naxçıvanın yaxınlaşmasında Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin xidmətləri əvəzsiz idi. Naxçıvan tədricən türk dünyasına qovuşurdu. Heydər Əliyev deyirdi: "Qədim türk diyarı Naxçıvan Azərbaycanın ayrılmaz hissəsidir. Qarşılaşdıqları çətinliklərə dözə-dözə naxçıvanlılar Azərbaycanın bütövlüyü, müstəqilliyi uğrunda mübarizə aparırlar. Rusiyanın əsarətindən çıxdıqdan sonra Azərbaycan türk, islam aləminə yaxınlaşıb qovuşmalıdır. Bu mənada Naxçıvan türk islam dünyasına bir qapıdır".

Azərbaycanla Türkiyə Respublikası arasında 1991-ci il yanvarın 29-da Naxçıvanda əməkdaşlıq haqqında protokol imzalandı. Sazişdə sərhəd çayı Araz üzərində avtomobil və dəmir yolları tikmək, Sovet-Türkiyə sərhəddində buraxılış məntəqəsi açmaq nəzərdə tutulurdu.

1991-ci il iyunun 11-də Qars vilayətinin valisi Həsən Bəkir başda olmaqla Türkiyənin nümayəndə heyəti Sədərəyə gəldi. Nümayəndə heyətinin tərkibinə Türkiyə Dəmir Yolu İdarəsinin rəisi Aslan Anadağ, şose yolları və körpü tikintisi idarəsinin rəisi İsmayıl Tuncər, Qars Dəmir Yolunun rəisi İsmayıl Yüksəl və yolun çəkilişinə məsul digər mütəxəssislər daxil idilər.

Azərbaycan Respublikası Nazirlər Kabinetində 1991-ci il iyulun 10-da keçirilmiş müşavirədə Azərbaycanla Türkiyə arasında iki tərəfli avtomobil yolu və dəmir yolu əlaqəsi ilə bağlı məsələlər müzakirə edildi. Müşavirədə Naxçıvan MR-in əlaqədar nazirlərinin, baş idarələrinin, partiya, sovet və təsərrüfat orqanlarının rəhbərləri də iştirak etmişdir. Müşavirənin gedişində göstərilmişdir ki, sazişin imzalanmasından sonra müəyyən işlər görülmüşdür: Sədərək qəsəbəsindən Türkiyənin sərhəddinədək olan 6,7 km avtomobil yolunun 4 kilometri hazırlanmış, ona asfalt döşənməyə başlanmış, körpü salınması başa çatmaq üzrədir.

1991-ci il sentyabrın 30-da Naxçıvan MR Ali Məclisinin növbədənkənar sessiyasında Naxçıvanın blokadası və yaranmış vəziyyətdən çıxış yolları müzakirə edildi. Türkiyənin Qars vilayətinin nümayəndə heyəti ilə danışıqlar aparıldı və əməkdaşlıq haqqında protokol imzalandı. 1991-ci il oktyabrın 25-də Türkiyə Naxçıvana 1 milyard lirəlik ərzaq yardımı göndərmək qərarına gəldi.

Naxçıvan Muxtar Respublikasının Sədərək rayonunda 1991-ci il oktyabrın 29-da Azərbaycan-Türkiyə



arasında Araz çayı üzərində müvəqqəti körpünün açılışı oldu. Körpünün rəsmi açılışı mərasimində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev, Türkiyə hökumət dairələrinin nümayəndələri, Azərbaycanın görkəmli elm və mədəniyyət xadimləri iştirak etmişdilər.

Müvəqqəti körpünün açılması ilə Türkiyənin Naxçıvana göndərdiyi humanitar yardımların həcmi artmağa başladı. 1991-ci ilin noyabrın 9-da Türkiyənin "Qızıl ay" cəmiyyətinin xətti ilə muxtar respublikaya 126 ton ərzaq gətirildi. Bununla əlaqədar Qars vilayəti valisinin vəkili İsmət Bahadırlar başda olmaqla nümayəndə heyəti Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev tərəfindən qəbul edilmişdi. Noyabrın 29-da isə Türkiyənin İğdır şəhəri əhalisinin və valiliyin naxçıvanlı qardaşlarına göndərdikləri ərzaq məhsullarından ibarət 19 yük maşını muxtar respublikaya gətirilmişdir. Humanitar yardımı İğdır Bələdiyyə idarəsinin rəisi Əli Aqrı gətirmişdi.

1992-ci il yanvarın 8-də Naxçıvan MR Ali Məclisi muxtar respublikada iqtisadi və ictimai-siyasi vəziyyət haqqında məsələni Ali Məclisin sessiyasında müzakirəyə çıxardı və sessiyada təcili tədbirlərin həyata keçirilməsinin vacibliyi vurğulandı.

1992-ci ilin yanvarında Türkiyənin "Sahap Group" daxili və xarici ticarət şirkəti idarə qurumunun başqanı Zəkan Savaşlar Naxçıvana gəldi. Ali Məclisin Sədri Heydər Əliyev türkiyəli qonağı qəbul etdi. Görüşdə "Sahap Group" şirkətinin muxtar respublikanın bir neçə sənaye müəssisəsi ilə birgə istehsal fəaliyyəti, ticarət əlaqələrinin genişləndirilməsi məsələləri müzakirə edilərək bir sıra razılaşmalar əldə olundu.

1992-ci il fevralın 6-da Ali Məclisin Sədri Heydər Əliyev Türkiyənin "Madcan" xarici ticarət şirkətinin prezidenti İbrahim Aydını qəbul etdi. Türkiyənin "Madcan" xarici ticarət şirkəti ilə bağlanmış müqaviləyə əsasən Naxçıvana Türkiyədən xeyli un və taxıl daxil olmuşdur.

Naxçıvan Muxtar Respublikasının xarici əlaqələrinin təşəkkül tapmasında Ali Məclisin Sədrinin 24 fevral 1992-ci il tarixdə verdiyi fərmanda yaradılan Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsi mühüm rol oynamağa başladı. O, Naxçıvanı blokadadan çıxarmaq üçün Naxçıvan-Türkiyə əlaqələrinin inkişafına xüsusi əhəmiyyət verirdi.

Ümummilli Liderimiz Heydər Əliyev Türkiyə Respublikasının prezidenti Turqut Özalın və Baş nazir Süleyman Dəmirəlin dəvəti ilə 1992-ci il martın 22-dən 25-nə qədər Türkiyə Respublikasında rəsmi səfərdə olmuşdu. Görüşdə tərəflər Qarabağda vəziyyəti və münaqişənin aradan qaldırılmasının mümkün yollarını, Türkiyənin muxtar respublikaya texniki və iqtisadi yardımların artırılması məsələlərini müzakirə etdilər. Heydər Əliyevin martın 23-də Süleyman Dəmirəl ilə görüşündə muxtar respublikanın statusu məsələsindən də bəhs olunmuşdur. Martın 24-də Türkiyənin Baş naziri Süleyman Dəmirəl və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev Ankarada 13 maddədən ibarət əməkdaşlıq haqqında protokol imzalamışdılar. Sənəddə Türkiyə və Naxçıvan arasında iqtisadiyyat, təhsil, nəqliyyat və rabitə sahəsində münasibətlərin inkişaf etdirilməsi nəzərdə tutulmuşdur.

Azərbaycan-Türkiyə əlaqələrinin inkişafında 1992-ci il mayın 28-də açılmış "Sədərək-Dilucu" körpüsü mühüm mərhələ oldu. Həmin gün Azərbaycan tarixinə əlamətdar bir gün kimi daxil oldu. Körpünün rəsmi açılışında iştirak etmək üçün Türkiyənin Baş naziri Süleyman Dəmirəlin başçılığı ilə böyük nümayəndə heyəti Naxçıvana gəldi. Yeni körpünün uzunluğu 288 m, eni 12 m, ümumi smeta dəyəri 5 mln. manatdan çox idi. Körpünü Türkiyənin məşhur "Matsandış" Yol Tikinti Şirkəti Naxçıvan Təmir-Tikinti İdarəsi ilə birlikdə inşa etmişdir. Bu körpü iki qardaş xalqın həsrətinə son qoymaqla yanaşı, iki respublika arasında iqtisadi, mədəni əlaqələrin genişlənməsi və inkişaf etməsi baxımından çox böyük əhəmiyyətə malik idi.

Körpünün açılışında Heydər Əliyev demişdir: "Bu körpü, həqiqətən, bizim ümüd və arzularımızın körpüsüdür. Bu körpü türk dünyasına qapı açmağa imkan verəcəkdir.

Süleyman Dəmirəl bu körpünün açılışını Azərbaycan və Türkiyə arasında əməkdaşlıqda yeni dövrün başlanğıcı adlandırmış və qeyd etmişdir ki, bu körpü təkcə Azərbaycanı və Türkiyəni birləşdirmir, bu Avropa və Asiya arasında körpüdür.

Naxçıvanlıların "Həsrət körpüsü", "Ümid körpüsü", türklərin "Könül körpüsü" adlandırdıqları bu körpünün tikilişindən təcavüzkar Ermənistan daha böyük narahatlıq keçirməyə başladı. Bu körpünün istifadəyə verilməsi Naxçıvanın həyatında yeni bir mərhələnin başlanğıcı oldu. Həmin körpü ilə Türkiyədən Naxçıvana ərzaq malları, yanacaq və s. gətirilməyə başlandı. Kəskin ərzaq, yanacaq qıtlığının yaşandığı Naxçıvanda bu körpü sözün əsl mənasında "Ümid körpüsü" oldu.

Ümummilli Liderimiz Heydər Əliyevin aparmış olduğu işlər sayəsində Naxçıvanın Türkiyə ilə əlaqələri həm hökumət səviyyəsində, həm də dost ölkənin muxtar respublikaya qonşu olan vilayətləri Qars, İğdır, Ağrı, Ərzurum ilə yaranmış iqtisadi və mədəni əlaqələr, Naxçıvanın çətin günündə həmin vilayətlərin icra strukturlarının və əhalinin muxtar respublikaya maddi və mənəvi köməyi problemlərin həll edilməsində mühüm rol oynadı.

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev 1999-cu il oktyabrın 13-də Naxçıvanda Kazım Qarabəkir paşa məscidin təntənəli açılışında demişdir: "Biz bir millət, iki dövlətik". Bu, bizim dostluğumuzun, qardaşlığımızın mənasını, məzmununu təşkil edir. Bu dostluq, qardaşlıq türk xalqı, Anadolu türkləri ilə Azərbaycan xalqı, Azərbaycan türkləri arasında əsrlərdən əsrlərə gələn dostluq, qardaşlıqdır.

Bu gün həmin strateji xətt Prezident İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan tərəfindən uğurla davam etdirilir. Azərbaycan və Türkiyə arasında münasibətlər son illərdə keyfiyyətcə yeni mərhələyə qədəm qoyub və strateji müttəfiqlik səviyyəsinə yüksəlib. Şuşa Bəyannaməsi Azərbaycan-Türkiyə münasibətlərində tarixi hadisədir. Bu sənəd ölkələrimizin təhlükəsizlik, müdafiə, iqtisadiyyat, enerji və digər mühüm istiqamətlərdə əməkdaşlığını daha da gücləndirdi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın Azərbaycanın və bütövlükdə Türk dünyasının qədim mədəniyyət beşiyi olan Şuşa şəhərində görüşünün tarixi əhəmiyyətini vurğulayaraq iki dost və qardaş ölkə arasında imzalanmış bütün beynəlxalq sənədlərə, bununla əlaqədar 13 oktyabr 1921-ci il tarixli Qars müqaviləsinə sadiq olduqlarını bir daha təsdiq edərək 9 fevral 1994-cü il tarixində imzalanmış "Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında dostluq və hərtərəfli əməkdaşlığın inkişafı barədə Müqavilə"ni və "Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında əməkdaşlıq və qarşılıqlı yardım haqqında Protokol"u, eləcə də 16 avqust 2010-cu il tarixində imzalanmış "Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında strateji tərəfdaşlıq və qarşılıqlı yardım haqqında Müqavilə"ni rəhbər tutaraq 2021-ci ildə Şuşa Bəyyannəməsini imzalamışdılar.

Azərbaycan Ermənistanın 30 illik təcavüzünə son qoyulmasında, işğal olunmuş torpaqların azad olunmasında, Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsində Türkiyə Respublikasının mənəvi-siyasi dəstəyini yüksək qiymətləndirir.

Bu gün Azərbaycan və Türkiyə regional və beynəlxalq məsələlərdə ortaq mövqedən çıxış edir. Azərbaycan-Türkiyə əməkdaşlığı regionun inkişafına və sabitliyinə mühüm töhfə verir. İki ölkənin birgə həyata keçirdiyi böyük layihələr yalnız iqtisadi deyil, həm də strateji əhəmiyyət daşıyır. Bakı-Tbilisi-Ceyhan neft kəməri, Cənub Qaz Dəhlizi, Bakı-Tbilisi-Qars dəmir yolu və Orta Dəhliz layihəsi Azərbaycan və Türkiyənin regional və qlobal əhəmiyyətini artıran mühüm təşəbbüslərdir. Bu layihələr ölkələrimizi bir-birinə daha sıx bağlayır, eyni zamanda Avropa ilə Asiya arasında mühüm nəqliyyat və enerji əlaqələrinin inkişafına xidmət edir. Azərbaycan-Türkiyə birliyi yalnız iqtisadi və siyasi sahələrlə məhdudlaşmır, humanitar və mədəni əlaqələr də bu münasibətlərin əsas istiqamətlərindən biridir.

Xəzər Hüseynov
Tarix elmləri doktoru, professor

Məslək və amal şairi

Onunla uzun müddətdir ki, dostluq, yoldaşlıq edirəm. Üzündən, gözündən, sözündən, danışığından hiss edirsən ki, o zamanın ağır sınaqlarından çıxıb, saçsaqqalını da bu yollarda ağardıb. Amalından, məsləyindən, əqidəsindən və məramından heç vaxt dönməyib. Haqqı-halallığı özünün əzəli və əbədi yol yoldaşı seçib. Özünün yazdığına və söylədiklərinə görə atasının və anasının əllərini qabarlı görüb. Özünü, sözünü biləndən sonra bu yolla irəliləyib. Köksündə bu qabarları doğurub. "Tufanlara, boranlara sinə gərib. Neçə-neçə baharları müjdələyib". Əsərlərinin birində "Atılmışam meydana qolumda yüz dost gücü"– deyən Xanəli Kərimli özü ilə oxucusu arasında bir halallıq körpüsü yaradır.

Xanəli Kərimli 1951-ci ilin noyabr ayının 27-də Şahbuz rayonunun Mahmudoba kəndində anadan olub. O şair, ədəbiyyatşünas, filologiya üzrə fəlsəfə doktoru, Naxçıvan Dövlət Universitetinin dosenti, ikinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı, Naxçıvan Muxtar Respublikasının Əməkdar müəllimi, Azərbaycan Yazıçılar Birliyinin üzvüdür. Xanəli Kərimli bir sıra elmi, ictimai və publisist məqalələrin müəllifidir. "Ay işığında", "Anamdan məktub", "Bu da bir nağıldı", "Mənə elə gəlir ki," "Duyğularım, düşüncələrim", "Payız duyğuları", "Tanrı müjdəsi","Mən haqqın yazan əliyəm" və sair kitabların müəllifidir. Şeir və yazıları muxtar respublika və ölkə mətbuatında dərc olunub. Bir çox şeirləri xarici dillərə tərcümə edilib.

Dövrünün tanınmış ziyalıları şairin ədəbi fəaliyyətini və yaradıcılığını təhlil etmiş, müxtəlif məzmunlu məqalələr və yazılar hazırlamışlar.

Yuxarıda söylədiyim kimi, Xanəli Kərimli məramından heç vaxt dönməyib. Misralarının birində söyləyir ki,

Qarışqa yuvadan çıxanda belə,
Bilir ki, mənzili, yolu haradır.

Şair də məramla yaşamağa üstünlük verir. Və bildirir ki, bizim babalar məramlı yaşadıqlarına görə onların şöhrəti hər yana yayılıb. Məramsız yaşamağın sonunun işə peşmanlıq və hədər olduğunu bildirir. Şair yazır:

Nə qədər məramsız millət silinib,
Tarixin tərəfsiz daş səhifəsindən.
Ölkələr yaranıb, dövlət qurulub
Ölən millətlərin ərazisindən.

Şairlərimizdən birinin aşağıdakı misraları yadıma düşür:

Sakit görünsə də çox zaman dəniz,
Orada tufan da, fırtına da var.

Xanəli Kərimlinin də qəlbini bir dənizə bənzətmək olar. Özü təbiətən nə qədər sakit görünsə də içi yatmış bir vulkandır. Söylədiyinə görə püskürəndə qiyamət olur. Biz şairin "Sabahların sabahına" adlı şeirindəki misralarında onun necə alov püskürdüyünün şahidi oluruq (Bu şeir 1993-cü ildə xalqımızın üzləşdiyi çətin sınaq dövründə yazılıb). Xanəli Kərimli həmin dövrdə Vətən üçün, azad dövlət üçün bircə damla qanına qıymayanları, tülkü kimi kol dibində kollananları, bircə çeynəm saqqız üçün utanmadan, qızarmadan Vətənini satanları, süfrəmizdə harınlaşanları məhşər ayağına çəkir. Onlara çalışmasını, ayılmasını, dövlətinə, millətinə sahib çıxıb keşiyində ayıq-sayıq dayanmasını tövsiyə edir. Belə bir dövrdə biz Xanəli Kərimlini Vətəninin, xalqının önündə görürük.

Mən qəlbimin yarasını,
Qan sızınca qaşımışam,
Zamanımın qorxusunun
Hürküsünün qarşısında
Əyilməyən, yenilməyən
Bir müqəddəs, bir şərəfli
Şair adı daşımışam.
Mən sözümün bir parasın dedim artıq,
Sabahların sabahına
Qoy sabahların sabahları
Batmasınlar bu günümün
Zamanımın günahına.

Biz dostlar da Xanəli Kərimlinin müdrik sözləri, ibrətamiz kəlamları ilə silahlanmışıq. Ondan çox şey öyrənmişik. O bizə çətinə düşəndə inamınızı, vüqarınızı itirməyin, ədəbli olun deyir. Çünki inam və vüqar insanın ləyaqəti, ədəb isə onun bəzəyidir. Şair əsərlərinin hər birində cəmiyyətimizi narahat edən məsələlərə işıq salıb. Öz dünyası ilə başbaşa qalıb.

Deyir ki,

Əl qabarım qazancım olub.
Bir Allah, bir qələm, bir də ağ vərəq,
Mənim son ümidim, son andım olub.

Xanəli Kərimli xalqının şairidir. O yaxşı bilir ki, xalqını sevən şairlərin ən şərəfli "mükafatı" ya zindanlar bucağıdır, ya da dar ağacıdır. Onu da yaxşı bilir ki, "Bir haqq fikir üçün, bir haqq söz üçün" nə qədər şairi dara çəkiblər. Axı dünyanın hər bir dərdi şairə yükdür. Bunun üçün əsl şairlərin ürəyi dünyadan on qat böyük olmalıdır.

Şair yazır:

Yüz min ordu ola, yüz min topxana,
Onlar bir şairin verməz yerini.
Bu dünya o vaxt ki, haqqa gələcək,
Onda dərk edəcək şairlərini.

Şairin şeirlərini oxuyanda onun qəlbinin xalq üçün, Vətən üçün necə çırpındığını hiss etməmək olmur. Zamanın belə dövründə xalqın ümidlə Ağ atlı oğlanın nə vaxtsa gəlib onları xilas etməsini gözlədiyi halda şair Sahib-zamanın gələn vaxtının çatdığını arzulayır və ürək ağrısı ilə deyir:

Üfüqdə saralan, sozalan Günəş,
Mənim millətimin sönən vaxtıdır.
İlahi, məsləhət sənindir ancaq,
Sahib-zamanın gələn vaxtıdır.

Bəli, Sahib-zaman gəlmişdi. Ulu Öndərimiz Heydər Əliyev Azərbaycan dövlətinin möhkəmləndirilməsi üçün siyasi, iqtisadi sahə ilə yanaşı Ordu quruculuğunda da uğurlu islahatlar aparırdı. Ulu Öndərimiz Heydər Əliyev işğal olunmuş torpaqlarımızın geri qaytarılmasını, ordumuzun gücləndirilməsində və şəxsi heyətin döyüş qabiliyyətinin artırılmasında görürdü. İllər keçirdi. Ulu Öndərin siyasətini uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti, Azərbaycan Silahlı Qüvvələrinin Ali Baş Komandanı İlham Əliyev Azərbaycan Ordusunun zəfər yolunu addım-addım bizə yaxınlaşdırırdı.

Belə bir gün gəlib çatdı. Ordumuz 44 günlük Vətən müharibəsindən qalib ayrıldı. Həmin gün mən dostum Xanəli Kərimlini çox nikbin gördüm. Sevinci yerə-göyə sığmırdı. Ordumuzun qələbəsi münasibətilə bir-birimizi təbrik etdik. O, əlindəki yazını mənə uzatdı. Bu onun "Bayrağını uca qaldır ana Vətən, indi meydan, söz sənindir" adlı poeması idi. Poemada deyilirdi:

Bayrağını uca qaldır ana Vətən,
indi meydan, söz sənindir,



Bütün tarix sədlərini əbədilik
qırmaq üçün, enmək üçün.
Vətənimin sərhəddinə, son həddinə,
son səddinə dönmək üçün,
Zaman döyür qapımızı, yaman döyür
qapımızı.

Bu poema az bir müddət içərisində bir çox mətbuat orqanlarında dərc olundu. Naxçıvan Televiziya və Radiosunda aktyorlarımız tərəfindən səsləndirildi. Bu poema Xanəli Kərimlinin poeziyamıza sanballı bir töhfəsi idi. Mən bir oxucu kimi deyə bilərəm ki, bu poema nəinki Xanəli Kərimlinin eləcə də, poeziyamızın şah əsəridir.

Qarşıdan əziz dostum Xanəli Kərimlinin 75 illik yubileyi yaxınlaşır. Bütün fəaliyyətini, yaradıcılığını xalqının azadlığına, xoşbəxtliyinə həsr edən, haqqın səsini, öz canında, iliyində, qanında tapan şair dostumu ürəkdən təbrik edir, xeyirli günlər arzulayıram. Qələmin iti, kəsərli, ömür ağacın barlı-bəhərli olsun! Bir şeirinizdə Tanrıya xitabən yazdığınız kimi:

Əsirgəmə Lütfünü
Mənimtək bir qulundan.
Mən ki, sənin yolçunam,
Yolçu dönməz yolundan.

Müjdəli sabahlara gedən yolun aydın olsun. 75 yaşın mübarək, qardaşım!

Səfiyar Abışov
Beynəlxalq Münasibətlər və Hüquq fakültəsinin müəllimi

Süni intellekt: Köməkçi, yoxsa rəqib?

Bir səhər telefonumuzu əlimizə alırıq və qarşımıza çıxan xəbərləri oxuyuruq. Bir neçə dəqiqə sonra hansısa mətni yazmaq, şəkil hazırlamaq və ya bilmədiyimiz bir mövzunu araşdırmaq istəyirik. Əvvəllər bunun üçün saatlarla vaxt lazım idisə, indi bir neçə saniyə kifayət edir. Səbəb isə həyatımıza sürətlə daxil olan süni intellektdir. Bir zamanlar yalnız filmlərdə və elmi-fantastik əsərlərdə təsəvvür edilən texnologiya bu gün artıq yanımızdadır. O suallarımızı cavablandırır, mətnlər hazırlayır, dillər arasında tərcümə edir, şəkillər yaradır və böyük həcmdə məlumatı təhlil edə bilir. Amma bütün bunların fonunda bir sual getdikcə daha çox düşündürür: Süni intellekt bizim köməkçimizdir, yoxsa gələcəyin rəqibi?

Süni intellektin inkişafı son illərdə texnologiya sahəsində ən böyük dəyişikliklərdən birinə çevrilib. İnsanlar gündəlik işlərini daha sürətli və rahat yerinə yetirmək üçün müxtəlif süni intellekt alətlərindən istifadə edirlər. Tələbələr mövzuları araşdırır, müəllimlər tədris materialları hazırlayır, şirkətlər məlumatları analiz edir, jurnalistlər isə informasiya toplamaq və mətn üzərində işləmək üçün bu texnologiyadan yararlanırlar.

Xüsusilə jurnalistika sahəsində süni intellektin imkanları diqqət çəkir. Böyük həcmdə informasiyanın qısa zamanda işlənməsi, mətnlərin redaktəsi, məlumatların sistemləşdirilməsi və müxtəlif mövzular üzrə ilkin araşdırmaların aparılması jurnalistin işini asanlaşdıra bilər. Lakin burada mühüm bir məsələ var: süni intellektin təqdim etdiyi hər məlumat doğru hesab edilə bilməz. Jurnalist məlumatı mütləq yoxlamalı, etibarlı mənbələrə müraciət etməli və faktların düzgünlüyünü təsdiqləməlidir. Çünki sürətli məlumat hər zaman doğru məlumat demək deyil.

Süni intellektin üstünlükləri bununla bitmir. O insanların vaxtına qənaət edir, təkrarlanan işləri avtomatlaşdırır və müəyyən məsələlərdə yeni imkanlar yaradır. Məsələn, bir neçə dəqiqə ərzində böyük bir mətnin əsas fikirlərini müəyyənləşdirmək və ya müxtəlif məlumatları müqayisə etmək mümkündür. Bu isə xüsusilə vaxtın vacib olduğu sahələrdə əhəmiyyətlidir.



Lakin texnologiyanın inkişafı ilə birlikdə müəyyən narahatlıqlar da ortaya çıxır. Süni intellekt bəzi işləri insanlardan daha sürətli görə bildiyi üçün gələcəkdə əmək bazarında hansı dəyişikliklərin baş verəcəyi sual doğurur. Bəzi peşələrdə müəyyən vəzifələrin avtomatlaşdırılması mümkündür. Bu isə insanlardan yeni bacarıqlar öyrənməyi, texnologiya ilə işləməyi və dəyişən əmək bazarına uyğunlaşmağı tələb edə bilər.

Digər mühüm məsələ isə süni intellektdən düzgün istifadə edilməsidir. Hazırlanan saxta şəkillər, videolar və yanlış məlumatlar insanların fikirlərinə təsir göstərə bilər. Xüsusilə sosial şəbəkələrdə yayılan hər bir görüntünün və məlumatın həqiqət kimi qəbul edilməsi ciddi problemlər yarada bilər. Buna görə də informasiya dövründə media savadlılığı və tənqidi düşüncə əvvəlkindən daha vacibdir.

Bütün bunlara baxmayaraq, süni intellekti yalnız rəqib kimi qəbul etmək doğru olmaz. Çünki bu texnologiyanın necə istifadə olunması insanın özündən asılıdır. Süni intellekt insanın yerinə düşünməkdən daha çox onun düşünmə və işləmə imkanlarını genişləndirən bir vasitəyə çevrilə bilər. Əsas məsələ texnologiyadan kor-koranə asılı olmaq deyil, ondan düzgün və məsuliyyətli şəkildə istifadə etməkdir.

İnsan yaradıcılığı, hissləri, şəxsi təcrübəsi və məsuliyyət hissi hələ də xüsusi əhəmiyyət daşıyır. Süni intellekt bir mətn hazırlaya bilər, amma həmin mətnin cəmiyyət üçün hansı məna daşıdığını və hansı nəticələrə səbəb ola biləcəyini qiymətləndirmək insanın üzərinə düşür. Bir şəkil yarada bilər, amma onun həqiqəti əks etdirib-etdirmədiyini müəyyənləşdirmək yenə də insanın məsuliyyətidir.

Bəlkə də gələcəkdə "insan, yoxsa süni intellekt?" sualından daha çox "insan və süni intellekt necə birlikdə işləyəcək?" sualı ön plana çıxacaq. Çünki texnologiyanın qarşısında dayanmaqdan daha vacib olan onun imkanlarını anlamaq və düzgün istiqamətdə istifadə etməkdir.

Süni intellekt artıq gələcəyin uzaq təsəvvürü deyil. O bu gün həyatımızın bir hissəsidir və qarşıdakı illərdə onun təsirinin daha da artması mümkündür. Köməkçi, yoxsa rəqib olması isə yalnız texnologiyanın gücündən deyil, insanın ona necə yanaşmasından asılı olacaq.


Gülay Yalçınqızı
Jurnalistika ixtisası üzrə
II kurs tələbəsi


İNGİLİS DİLİNİ ÖYRƏNƏNLƏR ÜÇÜN DƏYƏRLİ MƏNBƏ

Azərbaycanın ən inkişaf edən ali təhsil ocaqlarından biri olan Naxçıvan Dövlət Universitetində tədris istiqamətləri üzrə monoqrafiya, dərslik və dərs vəsaitlərinin hazırlanıb nəşr edilməsi işi də ardıcıl olaraq diqqət mərkəzində saxlanılır və çoxsaylı yeni töhfələr verilir. İngilis dili istiqaməti üzrə nəşr edilmiş növbəti monoqrafiya və dərs vəsaiti də bu səpkidəndir. Çap edilən yeni nəşrlərin müəllifi Naxçıvan Dövlət Universitetinin müəllimi, filologiya üzrə fəlsəfə doktoru Sərcan Sadiqovadır. S.Sadiqovanın müəllifi olduğu "İngilis dilində say tərkibli frazeoloji birləşmələr: struktur və mədəni aspektlər" adlı monoqrafiyası mövzu və problem baxımdan olduqca vacib, əhəmiyyətli və ümdədir. Belə ki, monoqrafiyada dilin lüğət tərkibində xüsusi yer tutan, nitq prosesində istifadə ehtiyacı daşıyan say tərkibli frazeoloji birləşmələrin həm struktur, həm də mədəni aspektlər baxımından araşdırılması, təhlil və tədqiq edilməsi dilçilik və tədris qarşısında duran vacib məsələlərdəndir. Monoqrafiyanın elmi redaktoru və ön sözünün müəllifi filologiya elmləri doktoru, professor İlham Tahirovdur. Monoqrafiya filologiya elmləri doktoru, professor Sədaqət Həsənova və filologiya üzrə fəlsəfə doktoru Rəcəb Cəfərovun rəyləri əsasında çap edilmişdir. Monoqrafiya üç fəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.

Monoqrafiyanın konkret elmi istiqamət və mövzu-problem sahəsi üzrə aktuallığını dəyərləndirən elmi redaktor professor İlham Tahirov kitaba yazdığı "Ön söz"də yazmışdır: "Müasir dilçilik elminin aparıcı istiqamətlərindən biri frazeologiyanın öyrənilməsidir. Frazeoloji vahidlərin semantik və kulturoloji aspektlərinin tədqiqi yalnız dilin daxili sistemini deyil, həm də xalqın tarixi yaddaşını, milli kimliyini və mədəni kodlarını üzə çıxarmağa imkan verir. Qloballaşan dünyamızda dil və mədəniyyətin qarşılıqlı əlaqəsinin daha da güclənməsi frazeoloji vahidlərin həm kommunikativ, həm də konseptual səviyyədə öyrənilməsini zəruri edir".

Dörd paraqrafdan ibarət olan "Frazeologiyada kəmiyyət kateqoriyasının tədqiqinin elmi-nəzəri məsələləri" adlanan birinci fəsildə "Kəmiyyət kateqoriyasının məntiqi və linqvistik əlaqəsi", "Sayların məna strukturunda miqdar və kəmiyyət anlayışı", "Sayların simvolikasının linqvokulturoloji aspekti", "Say





tərkibli frazelogizmlərin dünyanın frazeoloji mənzərəsində yeri" kimi problem məsələlər öyrənilmişdir.

İki paraqraf və iki bənddən ibarət olan ikinci fəsil "İngilis dilinin say tərkibli frazeologizmlərin struktur-semantik təhlili" adlanır. Bu fəsildə İngilis dilində "miqdar saylarının işləndiyi frazeoloji birləşmələr", sadə miqdar saylarının işləndiyi frazeoloji birləşmələr, mürəkkəb və tərkibi sayların işləndiyi frazeoloji birləşmələr, sıra saylarının işləndiyi frazeoloji birləşmələr tədqiqata cəlb edilmiş, maraqlı və özünəməxsus təhlillər aparılmış, əhəmiyyətli elmi nəticələr ortaya qoyulmuşdur.

"İngilis dilində say tərkibli frazeologizmlərin diskursiv təhlili" adlanan üçüncü fəsil dörd paraqrafdan ibarətdir. Bu fəsildə tədqiqatçı İngilis dilində say tərkibli frazeoloji birləşmələrin tematik təhlilini həyata keçirir, frazeoloji birləşmələrdə kəmiyyət komponentinin dəyərləndirilməsi, habelə say tərkibli frazeoloji birləşmələrin mətndaxili qiymətləndiriciliyinin müəyyənləşdirilməsi və say tərkibli frazeoloji birləşmələrin işlənmə tezliyi öyrənilir.

Monoqrafiyanın "Nəticə" hissəsində fəsillər və paraqraflar daxilində aparılmış tədqiqatların nəticələri ümumiləşdirilərək ifadə edilmişdir.

Əsər xüsusi əhəmiyyətə malikdir. Hər bir dilin ifadəliliyi və dəqiqliyinin ilkin şərti məhz onun frazeoloji – sabit birləşmələrindədir. Bu kimi ifadə üslubu fikrin qanadlı, dərin, təsirli və dəqiq ifadəsi baxımından mühüm rol oynayır. Buna görə də əsər İngilis dilini öyrənən tələbələr, tərcüməçilər, habelə dilin tədrisi ilə məşğul olan müəllimlər, tədqiqatçılar üçün vacib mənbədir. Xüsusilə tərcümə sahəsində bu əsərin və burada əldə edilən elmi nəticələrin xüsusi əhəmiyyət kəsb etdiyini məxsusi olaraq vurğulamalayıq. Fikrin antonimlik və ya sinonimlik daxilində ifadəsi, tam qarşılığının təqdim edilməsi və beləcə, fikrin dəqiq ifadə edilməsi baxımından frazeoloji birləşmələrdən təcrübi faydalanma əhəmiyyətli bir yola malikdir ki, bu əsər məhz qeyd edilən məqsədlər üçün qiymətli mənbədir.

Çox əhəmiyyətlidir ki, müəllif bununla kifayətlənməyərək əsərin başlıca məqsədini daha təcrübi, faydalı və işlək etmək məqsədilə lüğət də tərtib etmişdir. Müəllifin hazırladığı "İngiliscə-Azərbaycanca say tərkibli frazeoloji birləşmələr lüğəti" metodik dərs vəsaiti İngilis və Azərbaycan dillərinin öyrənilməsində çox əhəmiyyətli bir mənbə olaraq diqqəti cəlb edir. Kitabın elmi redaktoru filologiya üzrə fəlsəfə doktoru, dosent İlhamə Məmmədova, rəyçiləri dosent Şirməmməd Qulubəyli və filologiya üzrə fəlsəfə doktoru Cavid Babayevdir. Əsərin girişində deyildiyi kimi: "Müasir dilçilikdə say komponentli frazeoloji vahidlərin ayrıca toplanması və sistemli şəkildə lüğət formatında verilməsi xüsusi elmi əhəmiyyət kəsb edir".

Lüğətdə söz birləşmələri və ya idiomatik birləşmələr əlifba sırası ilə əvvəlcə mənası ilə birlikdə təqdim edilmiş, sonra cümlə daxilində işlənmiş müxtəlif nümunələrlə daha təcrübi olaraq mənimsədilməsi nəzərdə tutulmuşdur. Nümunələrin müxtəlif – İngilis və Azərbaycan dillərində qarşılıqlı şəkildə təqdim edilməsi və işlənmə modellərinin cümlə nümunələrindəki işlənmə variantlarının təqdimi örnəyin məna və işlənmə forması baxımından daha aydın mənimsənilməsini gücləndirir. "A beaten man is worth two unbeaten men – Bir əlin nəyi var, iki əlin səsi var və yaxud ağıl ağıldan ötkəmdir", "Among the blind one-eyed is king – At olmayan yerdə eşşək də atdır", "A game that two can play – Cücəni payızda sayarlar", "An old friend better than two new ones – Hər şeyin təzəsi, dostun köhnəsi", "(As) like as two peas (in a pod) – Bir almanın yarısı, burnundan düşmək", "A stitch in time saves nine – Bu günün işini sabaha qoyma", "Be six of one and half a dozen of the other – Keçəl Həsən, ya Həsən Keçəl", "Cousin seven times removed – Eşşəyimin/ itimin qurd dayısı", "Chose between two ewils the least – Zərərin yarısından qayıtmaq da xeyirlidir", "First catch your hare – Əvvəl arxı keç, sonra bərəkallah de" və s. kimi nümunələr kitabda təqdim edilən idiomatik söz birləşmələri və cümlə modellərinin qarşılıqlı olaraq öyrənilməsinin əhəmiyyətini və vəsaitin bu sahədəki böyük rolunu diqqətə çatdırır. Əsərin həm də əhəmiyyəti ordadır ki, konkret nümunələr fonunda iki xalqın idiomatik ifadələri nümunəsində düşüncə və ifadə tərzləri ortaya qoyulmuş, milli, mədəni, tarixi məsələləri dəyərləndirməyi ehtiyaca çevirmişdir. Millilik və dilçilik aspektindən məsələlərin izahı və öyrənilməsi üçün hər iki əsər xüsusi əhəmiyyətilə seçilir.

Beləliklə, gənc alim, Naxçıvan Dövlət Universitetinin istedadlı müəllimi Sərcan Sadiqovanın nəşr etdirdiyi "İngilis dilində say tərkibli frazeoloji birləşmələr: struktur və mədəni aspektlər" adlı monoqrafiyası və "İngiliscə-Azərbaycanca say tərkibli frazeoloji birləşmələr lüğəti" metodik dərs vəsaiti öz sahəsində sanballı, əhəmiyyətli və işlək əsərlər olaraq istifadəçilərin dərin marağını qazanacaq və böyük töfhələrlə yadda qalacaqdır.

Ramiz QASIMOV
AMEA Naxçıvan Bölməsinin
şöbə müdiri,
filologiya elmləri doktoru, dosent

Vətənə və xalqa xidmət edən xeyirxah insan tarixin silinməz yaddaşına çevrilir

Faydalı insan ətrafındakı insanlara təmənnasız əl tutan, şəxsi ləyaqətini uca tutan və etdiyi xeyirxahlığın əvəzində heç bir qarşılıq gözləməyən şəxsdir.

Tariximizə nəzər salsaq, xalqı və cəmiyyəti üçün misilsiz xidmətlər göstərmiş bir çox xeyriyyəçinin adını qürurla çəkə bilərik. Onların önündə isə görkəmli milyonçu Hacı Zeynalabdin Tağıyev dayanır. Kasıb bir ailədə dünyaya göz açan, gənc yaşlarından ağır fəhlə əməyi ilə dolanan Tağıyev, quyudan neft fontan vurması ilə böyük sərvət sahibi olmuşdu. Lakin o, qazandığı kapitalı şəxsi təmtərağa deyil, xalqının maariflənməsinə və cəmiyyətin inkişafına yönəltdi. Hətta bəzi varlıların onu qınamasına baxmayaraq, "Bu qala bizim qala, tikmişəm izim qala" deyərək tutduğu xeyirxah yoldan dönmədi.

Müsəlman Şərqində ilk dünyəvi qız məktəbinin XIX əsrin sonunda məhz Hacı Zeynalabdin Tağıyevin təşəbbüsü və maliyyə dəstəyi ilə açılması tarixi bir hadisə idi. Mühafizəkar dairələrin ciddi təzyiqləri ilə üzləşən Tağıyev müqəddəs ziyarətgahlardan din xadimlərinin fətvalarını gətirərək qızların təhsil almasının zəruriliyini sübut etdi. Bununla yanaşı,



onun tapşırığı ilə 1880-ci illərdə Azərbaycanın ilk teatr binası inşa edilərək mədəniyyətimizin xidmətinə verildi. Hacı Zeynalabdin Tağıyevin xalqımız qarşısındakı xidmətlərini saymaqla bitirmək mümkün deyildir.

Hacı Zeynalabdin Tağıyev maarif və mədəniyyət sahəsində xalqına necə xidmət etmişdisə, müasir dövrdə dövlətçiliyimizin xilasında və inkişafında Ümummilli Lider Heydər Əliyev də eyni fədakar rolu oynamışdır. Azərbaycanın müasir tarixində dərin iz qoymuş böyük şəxsiyyətlərin önündə məhz Ulu Öndər dayanır. 1969-1982-ci illərdə respublikaya rəhbərlik etdiyi dövrdə onun uzaqgörən siyasəti sayəsində ölkədə genişqayıqlı quruculuq işləri aparıldı, əhalinin rifahı hiss olunacaq dərəcədə yüksəldi. 1960-cı illərin sonlarında ermənilərin Qarabağı Ermənistana birləşdirmək cəhdlərinin qarşısı məhz Heydər Əliyevin qətiyyətli mövqeyi sayəsində alındı.

Siyasi varislik ənənələrinə uyğun olaraq, Ulu Öndərin əsasını qoyduğu bu xidmət yolunu və ərazi bütövlüyümüzün bərpası missiyasını isə Prezident İlham Əliyev uğurla tamamladı. Bu gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ulu Öndərin siyasi kursunu uğurla davam etdirir. Müzəffər Ali Baş Komandan İlham Əliyev ata vəsiyyətini şərəflə yerinə yetirərək gözəl yurdumuz Qarabağı işğaldan azad etdi. Həyata keçirilən uğurlu hərbi əməliyyatlar nəticəsində ölkəmizin ərazi bütövlüyü və suverenliyi tam bərpa olundu. Hazırda azad edilmiş torpaqlarda genişmiqyaslı bərpa və quruculuq işləri aparılır, keçmiş məcburi köçkünlər mərhələli şəkildə öz ata-baba yurdlarına qayıdırlar.

Yekun olaraq vurğulamalıyıq ki, hər birimiz cəmiyyətimiz və dövlətimiz üçün çalışan xeyirxah insanlara minnətdar olmalı, öz əməlimiz, fəaliyyətimiz və sözümüzlə vətənimizə faydalı bir vətəndaş kimi xidmət etməliyik.

Fatimə Allahverdiyeva
Jurnalistika ixtisası üzrə
I kurs tələbəsi

Müasir ali təhsildə xarici dil tədrisi: innovasiya, rəqəmsal texnologiyalar və süni intellekt

Universiteti yalnız auditoriyalar, mühazirələr və imtahanlarla məhdudlaşdırmaq olmaz. Universitet hər şeydən əvvəl düşüncə məkanıdır. Burada yalnız bilik əldə edilmir, həm də insanın dünyaya münasibəti, araşdırmaq həvəsi, özünü ifadə etmək bacarığı və gələcəyə baxışı formalaşır. Zaman dəyişdikcə universitet qarşısında dayanan vəzifələr də yenilənir. Bu gün ali təhsil alan gəncdən ixtisasını bilməklə yanaşı, xarici dillərdə ünsiyyət qurmaq, müasir texnologiyalardan yararlanmaq, informasiya bolluğunda doğru mənbəni seçmək və müstəqil düşünmək bacarığı tələb olunur.

Naxçıvan Dövlət Universitetində son illərdə təhsilin müasir çağırışlara uyğunlaşdırılması istiqamətində görülən işlər bu baxımdan xüsusi əhəmiyyət daşıyır. Universitet rəhbərliyinin təhsildə keyfiyyətin yüksəldilməsi, beynəlxalq əlaqələrin genişləndirilməsi, elm və innovasiyanın inkişafı, müasir texnologiyaların tədrisə tətbiqi istiqamətində müəyyənləşdirdiyi xətt müxtəlif struktur bölmələrin fəaliyyətində öz əksini tapır. Bu prosesdə Xarici dillər fakültəsinin üzərinə düşən vəzifələr isə xüsusilə diqqətçəkəndir. Çünki bu gün xarici dil yalnız tədris olunan fənn deyil. Xarici dil elmə, beynəlxalq təcrübəyə və dünya informasiya məkanına açılan qapıdır.

Xarici dillər fakültəsi – dünyaya açılan qapı

Naxçıvan Dövlət Universitetinin Xarici dillər fakültəsi zəngin ənənələrə malikdir. Fakültə hazırkı müstəqil strukturunda 2020-ci ildən fəaliyyət göstərir. Burada "İngilis dili və tərcümə", "İngilis dili və metodika", "Avropa dilləri" və "Şərq dilləri" istiqamətləri üzrə fəaliyyət göstərən kafedralar, müxtəlif dil mərkəzləri və müasir tədris imkanları mövcuddur. Fakültədə ingilis, fransız, alman, rus, çin, ərəb və fars dilləri ilə bağlı müəllimlik və tərcümə istiqamətlərində kadr hazırlığı həyata keçirilir.

Bu rəngarənglik təsadüfi deyil. Dil öyrənmək insanın dünyagörüşünü genişləndirir, başqa xalqların mədəniyyətini və düşüncə tərzini anlamağa imkan yaradır. Naxçıvan kimi tarixi-mədəni baxımdan zəngin bir regionda yerləşən universitet üçün müxtəlif dillərin öyrədilməsi həm də ölkəmizin dünyaya inteqrasiyasına xidmət edən mühüm amildir.

Fakültənin fəaliyyətində dil mərkəzlərinin xüsusi yeri vardır. Bu mərkəzlər tələbələrin auditoriyadan kənar məşğələlərdə, diskussiyalarda və müxtəlif tədbirlərdə iştirak etməsinə imkan yaradır. Xarici dillərin yalnız dərslik və auditoriya çərçivəsində deyil, canlı ünsiyyət və müzakirə mühitində öyrənilməsi dil bacarıqlarının daha səmərəli formalaşmasına şərait yaradır. Əslində, dil öyrənməyin mahiyyəti də bundan ibarətdir. Tələbə sözləri əzbərləməklə dili tam mənimsəmiş sayılmır. O, həmin dildə düşünməyi, dinləməyi, danışmağı, yazmağı və fikrini əsaslandırmağı bacarmalıdır. Məhz buna görə müasir dil dərsi tələbənin passiv dinləyici olduğu ənənəvi modeldən fərqlənməlidir. Dialoqlar, müzakirələr, təqdimatlar, layihələr, situativ tapşırıqlar və rəqəmsal resurslar dil öyrənməsini daha canlı və məqsədyönlü edir.

Müəllim və tələbə – yeniliyin əsas iştirakçıları

Müasir təhsil yalnız texnologiyanın gətirilməsi ilə qurulmur. Texnologiyanı tədrisin məqsədinə çevirən deyil, ondan məqsədyönlü istifadə edən müəllim əsas qüvvə olaraq qalır. Bu baxımdan universitet rəhbərliyinin müəllimlərin peşəkar inkişafına, müasir tədris metodlarının tətbiqinə və beynəlxalq əməkdaşlıqların genişləndirilməsinə verdiyi diqqət mühüm əhəmiyyət daşıyır.

Naxçıvan Dövlət Universitetinin Azərbaycan Dillər Universiteti ilə əməkdaşlığı bu istiqamətdə diqqətçəkən nümunələrdəndir. Əməkdaşlıq çərçivəsində ADU-nun mütəxəssisləri NDU-nun Xarici dillər fakültəsində təlimlər keçirib, tərcüməçi hazırlığı, yazılı və audiovizual tərcümə, ilkin tərcümə vərdişləri və kompüter tərcümə proqramları kimi aktual məsələlər müzakirə olunub. Belə əməkdaşlıqların əhəmiyyəti yalnız keçirilən təlimlə məhdudlaşmır. Əsas məsələ müxtəlif ali məktəblərin təcrübəsinin qarşılıqlı şəkildə öyrənilməsi, müəllim və tələbələrin yeni yanaşmalarla tanış olması və əldə olunan biliklərin tədris prosesinə gətirilməsidir. Bu baxımdan Xarici dillər fakültəsinin qarşısında mühüm vəzifələr dayanır: dil tədrisinin praktik yönünün gücləndirilməsi, tələbələrin beynəlxalq resurslardan istifadəsinin genişləndirilməsi, tərcümə sahəsində müasir texnologiyaların imkanlarının öyrənilməsi və tələbələrin real kommunikasiya mühitinə hazırlanması.

Süni intellekt və dil öyrənməsinin yeni imkanları

Müasir təhsildən danışarkən süni intellekt mövzusuna toxunmamaq mümkün deyil. Süni intellekt artıq yalnız texnologiya sahəsinin deyil, elmin, təhsilin və gündəlik həyatın da mühüm komponentlərindən birinə çevrilir.

Naxçıvan Dövlət Universitetində bu istiqamətdə konkret addımların atılması da diqqət çəkir. 2026-cı ilin martında universitetdə "Elmi tədqiqatlarda süni intellektdən istifadə bacarıqları" mövzusunda akademik təlim keçirilib. Təlimdə süni intellekt alətlərinin elmi-tədqiqatda tətbiqi, məlumatların analizi, akademik yazıda texnologiyadan istifadə və etik məsələlər müzakirə olunub. Universitetdə 2026-cı ilin mayında süni intellekt istiqamətində yeni layihə və həmin ay keçirilən "Süni intellekt: nəzəriyyədən praktikaya" III Beynəlxalq elmi konfrans da bu mövzuya verilən diqqətin davamlı xarakter daşıdığını göstərir.

Bəs süni intellekt Xarici dillər fakültəsinə nə verə bilər?

İmkanlar genişdir. Tələbə xarici dildə mətnlərlə işləyərkən süni intellekt alətlərindən əlavə öyrənmə vasitəsi kimi istifadə edə, yeni sözlərin kontekstdə işlənməsini araşdıra, müxtəlif ünsiyyət situasiyalarını modelləşdirə və yazılı nitqini təkmilləşdirə bilər. Müəllim isə bu texnologiyalardan fərdi tapşırıqların hazırlanması və tələbələrin dil bacarıqlarının inkişafına yönəlmiş əlavə materialların yaradılması üçün yararlana bilər. Amma bir həqiqət dəyişməz olaraq qalır: süni intellekt tələbənin yerinə düşünməməlidir. Əksinə, süni intellekt dövründə insanın düşünmə qabiliyyətinə daha böyük ehtiyac yaranır. Tələbə aldığı məlumatın doğruluğunu yoxlamalı, mənbəni qiymətləndirməli, hazır cavabı olduğu kimi qəbul etməməli və öz fikrini formalaşdırmalıdır. Akademik dürüstlük və müəlliflik məsuliyyəti də bu prosesin ayrılmaz hissəsidir.

Qarşıda daha böyük vəzifələr dayanır

Naxçıvan Dövlət Universitetində həyata keçirilən yeniliklərin əsas məqsədi sadəcə müasir texnologiyalardan istifadə etmək deyil. Əsas məqsəd müasir dünyanın tələblərinə cavab verən şəxsiyyət və mütəxəssis yetişdirməkdir. Bu məqsədə çatmaq üçün universitet rəhbərliyi, fakültələr və müəllimlər arasında qarşılıqlı əməkdaşlığın daha da gücləndirilməsi vacibdir. Yeni texnologiyalar tədris prosesinə məqsədyönlü şəkildə daxil edilməli, müəllimlərin peşəkar inkişafı davam etdirilməli, tələbələrin təşəbbüsləri dəstəklənməli və beynəl- xalq təcrübədən daha geniş istifadə olunmalıdır. Xarici dillər fakültəsinin qarşısında isə xüsusi bir missiya dayanır. Dil öyrənən tələbə yalnız imtahana hazırlaşan tələbə olmamalıdır. O, gələcəkdə beynəlxalq elmi və peşəkar mühitdə özünü ifadə edə bilən, müxtəlif mədəniyyətləri anlayan, informasiya mənbələrinə çıxış əldə edən və öz fikrini dünyaya çatdırmağı bacaran mütəxəssis kimi formalaşmalıdır. Bu yolun uğuru universitet rəhbərliyinin müəyyən etdiyi strateji istiqamətin, fakültənin təşkilati və metodik fəaliyyətinin, müəllimin peşəkarlığının və tələbənin şəxsi səylərinin vəhdətindən keçir. Naxçıvan Dövlət Universitetinin bugünkü inkişaf mənzərəsi göstərir ki, ənənə ilə yeniliyi qarşılaşdırmaq deyil, onları bir-birini tamamlayan dəyərlərə çevirmək mümkündür. Xarici dillərin öyrənilməsi, müasir tədris metodlarının tətbiqi və süni intellekt imkanlarından istifadə bu yenilənmənin müxtəlif istiqamətləridir. Çünki gələcəyin universiteti yalnız bilik verən deyil, tələbəyə dünyanı oxumağı, anlamağı və öz sözünü dünyaya çatdırmağı öyrədən universitetdir. Təsadüfi deyil ki, ölkə Prezidenti cənab İlham Əliyevin rəqəmsallaşma ilə əlaqədar dəfələrlə irəli sürdüyü konsepsiya və bu istiqamədə qarşıya qoyulan vəzifələr milli təhsil sisteminin forma və məzmunca yeniləşməsinə mühüm töhfələr verməkdədir. İnanırıq ki, tələbə və müəllimlər, xüsusilə xarici dillərin tədrisi sahəsində bu yeniliklər öz səmərəli nəticəsini verəcək, yeni dövrün tələblərinə cavab verən mütəxəssislər yetişməsinə əvəzsiz rol oynayacaq.

İlhamə Məmmədova,
Xarici dillər fakültəsinin dekanı,
dosent

Bir diplom, min sual: Universitet bizi həyata nə qədər hazırlayır?

Universitetə ilk dəfə qədəm qoyanda qarşımızda uzun bir yol açılır. Yeni insanlar, yeni mühit, yeni məsuliyyətlər... İlk günlərdə düşüncələrimizin böyük hissəsi dərslər, imtahanlar və gələcəkdə əldə edəcəyimiz diplom ətrafında olur. Ancaq zaman keçdikcə bir sual daha çox düşündürür: Universitet bizi diplom almağa, yoxsa diplomdan sonrakı həyata hazırlayır?

Universitet, şübhəsiz ki, seçdiyimiz ixtisas üzrə bilik qazanmağımız üçün mühüm mərhələdir. Mühazirələrdə öyrəndiklərimiz, seminarlarda apardığımız müzakirələr, hazırladığımız təqdimatlar və layihələr gələcək peşəmiz üçün müəyyən baza yaradır. Lakin həyat auditoriyadakı kimi deyil. Real həyatda qarşımıza hazır cavab variantları çıxmır. Bəzən qərarı özümüz verməli, səhv etdikdə isə həmin səhvdən nəticə çıxarmağı bacarmalıyıq.

Məsələn, tələbə müəyyən bir mövzu haqqında bütün nəzəri məlumatları bilə bilər. Amma həmin bilikləri real iş şəraitində tətbiq etmək tamam başqa bacarıq tələb edir. İnsanlarla ünsiyyət qurmaq, öz fikrini düzgün ifadə etmək, komanda ilə işləmək, vaxtı idarə etmək və məsuliyyət daşımaq da ən az ixtisas bilikləri qədər əhəmiyyətlidir.

Universitet illərinin başqa bir mühüm tərəfi isə insanın özünü tanımasıdır. Müxtəlif xarakterli insanlarla qarşılaşır, fərqli fikirlər eşidir və bəzən əvvəllər düşünmədiyimiz məsələlərə başqa tərəfdən baxmağa başlayırıq. Bir seminar zamanı verilən sual, müəllimin söylədiyi fikir və ya tələbə yoldaşımızla etdiyimiz söhbət belə bizə yeni bir baxış qazandıra bilər.

Bu gün dünyada dəyişikliklərin sürəti də universitet qarşısında yeni tələblər yaradır. Texnologiyalar inkişaf edir, əmək bazarı dəyişir, yeni peşələr və yeni



bacarıqlar meydana çıxır. Buna görə tələbə üçün yalnız hazır məlumatları əzbərləmək kifayət etmir. Əsas məsələ öyrənməyi öyrənməkdir. Çünki universitetdə qazandığımız hər bir məlumat gələcəkdə dəyişə bilər, amma araşdırmaq və yenidən öyrənmək bacarığı bizimlə qalır.

Tələbənin universitet həyatında öz fəallığı da böyük əhəmiyyət daşıyır. Təkcə dərslərdə iştirak etməklə kifayətlənmək əvəzinə tələbə klublarına qoşulmaq, layihələrdə iştirak etmək, könüllü fəaliyyət göstərmək, tədbirlərdə çıxış etmək və ixtisası üzrə təcrübə toplamaq mümkündür. Xüsusilə gələcək peşəsi insanlarla ünsiyyət və yaradıcılıq tələb edən tələbələr üçün bu fəaliyyətlər mühüm təcrübə qazandıra bilər.

Bəs universitet bizi həyata tam hazırlaya bilərmi?

Əslində, həyatın bütün suallarına universitetdə hazır cavab tapmaq mümkün deyil. Çünki hər insanın qarşısına fərqli vəziyyətlər çıxır. Universitetin əsas məqsədi də bütün cavabları əvvəlcədən vermək olmamalıdır. Daha vacib olan tələbəyə düşünməyi, araşdırmağı, sual verməyi və qarşılaşdığı problemə özü həll yolu axtarmağı öyrətməkdir.

Diplom bir son deyil, yeni başlanğıcdır. Onun üzərində ixtisasımızın adı yazılır, amma həyat bundan sonra qarşımıza minlərlə yeni sual çıxarır. Universitet isə bizi həmin sualların hamısına hazır cavab verməklə deyil, cavabları özümüz axtarmağa hazırlamaqla həyata daha yaxın edə bilər.

Bəlkə də universitetin bizə verə biləcəyi ən böyük dərs budur: həyatın bütün cavablarını bilmək yox, doğru sualları verməyi bacarmaq.

Fatimə Həsənova
Jurnalistika ixtisası üzrə
I kurs tələbəsi

Bir gün oyandıq ki, hər şeyi süni intellekt edir... Bəs insanlara nə qalacaq?

Təsəvvür edin: səhər telefonunuzu götürürsünüz. Xəbərləri sizin üçün süni intellekt hazırlayıb, dərs cədvəlinizi süni intellekt təşkil edib, oxuduğunuz məqaləni yenə süni intellekt yazıb, hətta izlədiyiniz videodakı insanın səsi və görüntüsü belə gerçək deyil. Bu, artıq fantastik film səhnəsi deyil. Dünyanın bir çox yerində bu texnologiyalar həyatın bir hissəsinə çevrilməyə başlayıb.

Süni intellekt dünyanı dəyişir. Amma əsas sual budur: bu dəyişiklik bizi hara aparır?

Süni intellekt bir neçə il əvvəl yalnız texnologiya mütəxəssislərinin danışdığı mövzu idisə, bu gün məktəblidən jurnalistə, həkimdən sahibkara qədər, demək olar ki, hər kəsin həyatına toxunur. İnsanlar mətn yazmaq, məlumat toplamaq, tərcümə etmək, şəkil yaratmaq və müxtəlif problemləri həll etmək üçün süni intellektdən istifadə edirlər.

Xüsusilə media sahəsində dəyişiklik daha aydın görünür. Jurnalist böyük həcmdə məlumatı saatlarla araşdırmaq əvəzinə, süni intellektdən məlumatları qruplaşdırmaq və ilkin analiz aparmaq üçün istifadə edə bilər. Bu, jurnalistin işini sürətləndirə bilər. Ancaq burada başqa bir problem ortaya çıxır: Süni intellektin hazırladığı məlumat doğrudurmu?

Süni intellekt hər zaman düzgün cavab verməyə bilər. Bundan əlavə, süni intellekt vasitəsilə hazırlanmış saxta şəkillər, videolar və səslər insanları yanıltmaq üçün istifadə oluna bilər. Artıq bir insanın heç vaxt demədiyi sözü demiş kimi göstərmək və ya heç vaxt baş verməmiş hadisəni real görüntü kimi təqdim etmək texniki baxımdan mümkünləşib.

Bu vəziyyətdə jurnalistin rolu daha da əhəmiyyətli olur. Çünki müasir jurnalistika yalnız məlumatı çatdırmaqdan ibarət deyil. Jurnalist məlumatın mənbəyini araşdırmalı, faktları yoxlamalı və oxucuya etibarlı informasiya təqdim etməlidir.

Bəs süni intellekt jurnalistləri əvəz edə bilərmi?

Bu suala sadə "bəli" və ya "xeyr" cavabı vermək çətindir. Süni intellekt müəyyən jurnalist fəaliyyətlərini avtomatlaşdıra bilər, lakin jurnalistikanın əsas elementlərindən biri olan insan təcrübəsi, müsahibə aparmaq, hadisənin kontekstini anlamaq və cəmiyyətin problemlərinə insan gözü ilə yanaşmaq başqa məsələdir.

Əslində, gələcəyin jurnalisti ilə bugünkü jurnalist arasında böyük fərq ola bilər. Gələcəyin jurnalisti yalnız yaxşı yazmağı deyil, həm də süni intellekt ilə işləməyi, rəqəmsal məlumatları yoxlamağı və saxta informasiyanı müəyyən etməyi bilməli olacaq.

Süni intellekt qarşısıalınmaz bir dalğa kimi dünyaya daxil olur. Bu dalğanın bizi hara aparacağını isə yalnız texnologiya deyil, insanların ondan necə istifadə etməsi müəyyənləşdirəcək.

Bəlkə də gələcəyin əsas sualı "AI insanları əvəz edəcəkmi?" olmayacaq.

Əsas sual bu olacaq:

"İnsanlar AI ilə birlikdə necə dəyişəcək?"

Atlas Əliyeva
Jurnalistika ixtisası üzrə
I kurs tələbəsi

Süni intellektin hüquqi tənzimetmə problemi

Süni intellektin konstitusion-hüquqi tənzimlənməsi problemi müasir hüquq elminin ən aktual çağırışlarından biridir. Bu gün süni intellekt sadəcə texnoloji bir proqram deyil, həyatımızın bir çox sahəsində bizim əvəzimizə qərarlar verən güclü bir fenomendir. Dövlət idarəçiliyindən məhkəmə sisteminə qədər bu texnologiyanın tətbiqi böyük rahatlıqlar yaratsa da, mühüm hüquqi sualları bərabərində gətirir. Ən təməl sual isə budur: əsrlər boyu insan münasibətlərini tənzimləyən konstitusiyalar yaratdığı yeni rəqəmsal reallığı idarə etməyə hazırdırmı?

Müasir hüquq elmində süni intellektin hüququn obyekti, yoxsa müstəqil subyekti olması ətrafında kəskin mübahisələr gedir. 2017-ci ildə Avropa Parlamenti avtonom sistemlərə xüsusi bir "elektron şəxs" statusunun verilməsini müzakirəyə çıxarsa da, məsuliyyət problemi bu cəhdin qarşısını kəsdi. Çünki öz qərarları ilə zərər vuran bir alqoritmi cəzalandırmaq və təqsirin proqramçıda, yoxsa sistemin özündə olmasını müəyyən etmək müşkül məsələdir. Bu hüquqi qeyri-müəyyənliyin bariz nümunəsi 2017-ci ildə Səudiyyə Ərəbistanının Sofi adlı robota vətəndaşlıq verməsi oldu. Nə seçki, nə vergi, nə də mülkiyyət hüququ olan Sofinin statusu simvolik xarakter daşıyır və hüquqi bazadan məhrumdur. Bu nümunə sübut edir ki, status məsələsi sadəcə siyasi bəyanat deyil, ciddi konstitusion əsaslara söykənməlidir.

Hazırda dünya ölkələri hüquqi tənzimləmədə vahid modelə malik olmasa da, bir sıra dövlətlər artıq konstitusion addımlar atmaqdadır. Məsələn, 2021-ci ildə Çili konstitusiyasına dəyişiklik edərək əqli məxfiliyi, iradə azadlığını qoruyan və beynin xarici texnologiyalarla icazəsiz manipulyasiyasını qadağan edən ilk dövlət oldu. Məsələnin elmi-nəzəri tərəfləri də kafi dərəcədə dərindir. Lourens Lessiqin "Kod qanundur" konsepsiyasına görə, rəqəmsal mühitdə insan davranışını yalnız hüquq deyil, proqram kodu tənzimləyir. Hüquq davranışı sonradan cəzalandırdığı halda, kod onu əvvəlcədən imkansız edir və bu da proqramçıları faktiki olaraq norma-yaratıcıya çevirir. Frank Paskuale isə "Qara qutu cəmiyyəti" xəbərdarlığında alqoritmlərin şəffaf olmayan meyarlarla işlədiyini vurğulayır. Əgər sistemə öyrədilən məlumatlarda cəmiyyətin keçmiş qərəzləri varsa, alqoritm bunu daha da böyüdərək rəqəmsal ayrıseçkilik yaradır. Eyni zamanda üz tanıma və kütləvi müşahidə sistemləri şəxsi həyatın toxunulmazlığını daraldır, alqoritmlərin məlumat axınını yönləndirməsi isə azad seçim iradəsini zəiflədir. Joel Reidenberqin qeyd etdiyi kimi, alqoritmlər fərdi canlı varlıq kimi deyil, "statik data toplusu" kimi görür. UliŞtayner isə xəbərdarlıq edir ki, dövlət funksiyalarının qapalı kodlara həvalə edilməsi suverenlik prinsipini zədələyir. Nəhayət, Marsello İenkanın fikrincə, neyrotexnologiyaların inkişafı fonunda "idrak azadlığı" yeni bir konstitusion hüquq kimi tanınmalıdır.

Hüquqi məsuliyyət məsələsində də alimlər müxtəlif yollar təklif edirlər. Curtis Karnow və azərbaycanlı mülki hüquqşünas Sərvər Süleymanlı "obyektiv məsuliyyət" modelini müdafiə edirlər. Bu yanaşmaya görə, süni intellekt yüksək təhlükə mənbəyi sayılmalı, klassik təqsir axtarışından imtina edilməli və texnologiyadan mənfəət götürən operator dəyən zərəri avtomatik kompensasiya etməlidir. Digər alim Abbot Ryan isə sistemi insanla bərabərləşdirmək üçün deyil, sadəcə zərərin ödənilməsi üçün "rəqəmsal cib" rolunu oynayacaq "elektron şəxsiyyət" statusunun və məcburi sığorta fondunun tərəfdarıdır. Mireyl Hildebrandt isə məsələyə dizayn mərhələsindən yanaşaraq hüquqi qorunma mexanizmlərinin hələ proqram yazılan zaman koda daxil edilməsini zəruri hesab edir.

Yekun olaraq, süni intellektin tənzimlənməsi texnoloji inkişaf ilə insan təhlükəsizliyi arasında yeni bir konstitusion balansın tapılması cəhdidir. Hüquq sistemi maşınların qərarvermə imkanlarını nəzərə almalı, lakin hər zaman insan mərkəzli məsuliyyət ünvanını saxlamalıdır. Bu yanaşma vətəndaşların hüquq və azadlıqlarının rəqəmsal "qara qutular'd0a itib-batmasının qarşısını alan ən etibarlı zəmanətdir.

Dəniz Maxsudova
Hüquqşünaslıq ixtisası üzrə
II kurs tələbəsi

Niyə köhnə şəkildə insanlar daha ciddi görünür?

Köhnə bir şəklə baxanda ilk diqqətimizi çəkən şey bəzən şəkildəki insanlar olmur. Onların üzündəki ifadə olur. Hamısı sanki eyni şeyi düşünür. Heç kim gülümsəmir. Heç kim kameraya əl eləmir. Sadəcə dayanıb baxırlar.

Bir az qəribədir.

Bu gün bir insanla şəkil çəkdirmək üçün xüsusi səbəb lazım deyil. Telefonu çıxarırsan, kameranı açırsan və şəkil hazırdır. Bəzən eyni anın onlarla fotosu çəkilir. Gülümsəyirik, müxtəlif pozalar veririk, bəyəndiyimizi saxlayıb qalanlarını silirik.

Amma köhnə şəkillərdə belə deyil.

Əvvəllər fotoşəkil çəkmək gündəlik bir iş deyildi. Fotoaparat hər evdə olmurdu. İnsanlar fotoqrafın yanına gedir, qarşısında dayanır və həmin anı yadda saxlamağa çalışırdılar. Şəkil çəkilən zaman hərəkətsiz qalmaq da lazım idi. Buna görə də üzlərdəki ifadə indiki şəkillərdən fərqli görünür.

Amma məsələ təkcə texnologiyada deyil.

Köhnə şəkillərdə insanın kameraya baxışında başqa bir hiss də var. Sanki o adam qarşısındakı kiçik obyektə yox, gələcəyə baxır.

Bəlkə də ona görə belə ciddi dayanırdı.

Çünki bilmirdi ki, bu şəkilə kim baxacaq.

Bəlkə həmin şəkli illər sonra onun uşaqları görəcəkdi. Bəlkə nəvələri. Bəlkə də heç tanımadığı insanlar.



Bu gün isə şəkil çəkdirəndə çoxumuz gələcəyi düşünmürük. Əsas məqsəd həmin anı paylaşmaq, saxlamaq və ya kiməsə göstərməkdir. Şəkil telefonun yaddaşında qalır, sonra yüzlərlə başqa şəklin arasında itib gedir.

Köhnə fotoşəkillərdə isə başqa bir şey var: gözləmə.

Bir şəkil üçün insanlar bəzən uzun müddət gözləyirdilər. Ona görə də həmin şəkil onlar üçün sadəcə şəkil deyildi. Bir hadisə idi.

Bəlkə buna görə köhnə fotoalbomların özünəməxsus bir səssizliyi var.

Səhifəni çevirirsən. Bir ailə görürsən. Ortada yaşlı bir kişi, yanında qadın, arxada uşaqlar. Heç birinin adını bilmirsən. Hansı kənddə yaşadıqlarını da bilmirsən. İndi harada olduqlarını isə heç vaxt öyrənməyəcəksən.

Amma hamısı bir anlıq qarşındadır.

Onların həyatı bitib, evləri dəyişib, küçələri dəyişib, bəlkə də həmin insanların heç biri artıq həyatda deyil. Amma bir neçə saniyəlik baxışları hələ də qalır.

Əslində fotoşəkil zamanı dayandırmır.

Sadəcə bizə zamanın keçdiyini göstərir.

Bu gün çəkdiyimiz bir şəklə on il sonra baxanda biz də dəyişəcəyik. Saçlarımız, üzümüz, geyimimiz, baxışımız... Bəlkə də həmin günün özünü belə xatırlamayacağıq. Amma şəkil xatırlayacaq.

Bəlkə köhnə şəkillərdə insanların ciddi görünməsinin səbəbi də budur. Onlar kameranın qarşısında sadəcə bir an dayanmırdılar. Özlərindən sonra qalacaq bir iz qoyurdular.

Biz isə hər gün yüzlərlə şəkil çəkirik.

Amma onların neçəsi həqiqətən yadda qalacaq?

Bəlkə problem şəkillərin çoxalmasında deyil.

Bəlkə problem ondadır ki, artıq bir şəklin yox, minlərlə şəklin içində yaşayırıq.

Onur Cəbrayılov
Jurnalistika ixtisası üzrə
II kurs tələbəsi

Baş redaktor:
Şəhla Şirəliyeva
shehlashiraliyeva@ndu.edu.az

Ünvan: AZ 7012,
Naxçıvan şəhəri,
Universitet şəhərciyi
Telefon: 544-08-61 (1360)
yenifikir.ndu@gmail.com

Qeydiyyat № 330
Sifariş № 374
Tiraj 350

Dizayner:
SAHİLƏ ABBASOVA
"Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyində ofset üsulu ilə çap olunmuşdur.